# Salavat ilahi bir zikrdir




*Salavat Behiştdən bir töhvədir.*
*Salavat ruhu saflaşdırır.*
*Salavat insanın ağzını gözəl iylədən bir ətirdir.*
*Salavat Sirat körpüsünün nurudur.*
*Salavat insanın şəfaətçisidir.*
*Salavat ilahi bir zikrdir.*
*Salavat namazın kamilliyidir.*
*Salavat duanın kamilliyi və qəbul olunmasıdır.*
*Salavat Peyğəmbəri (s) yuxuda görməyin nişanəsidir.*
*Salavat Cəhənnəm odundan bir qalxandır.*
*Salavat Qiyamətdə və Bərzəxdə dostdur.*
*Salavat insanın Behiştə daxil olmasına səbəbdir.*
*Salavat insanı üç aləmdə sığortalayandır.*
*Salavat Allah tərəfindən rəhmət, mələklər tərəfindən günahların pak edilməsi, insanlar tərəfindən isə duadır.*
*Salavat Qiyamət günü ən üstün əməldir.*
*Salavat ən sevilmiş əməldir.*
*Salavat Cəhənnəm odunu söndürür.*
*Salavat namazın zinətidir.*
*Salavat günahları aradan aparır.*
*Salavat ən yaxşı mənəvi dərmandır.*
*Salavat insanın Allaha yaxınlaşmasına səbəbdir.*

*ALLAHUMMƏ SƏLLİ ƏLA MUHƏMMƏD VƏ ALİ-MUHƏMMƏD*

# ALLAH İNSANI NƏ ÜÇÜN YARATDI?



İNSANIN YARADILIŞ HƏDƏFİ

Allah-taala insanı ali bir hədəfə yetişmək üçün yaratmış, həmin hədəfə yetişməsi üçün onu müxtəlif qüvvələrlə təmin etmişdir. Bu hədəf insanın Allah-taalanın bəndəliyi və Onu tanımaq məqamına yüksəlişdən başqa bir şey deyil. Həmin hədəfə yetişən insan Allahın uca xəlifəlik-canişinlik məqamına çatmış olur.

Digər varlıqların yaradılışı isə insanın yaradılışına, həyatına müqəddimədir.

HƏDƏFƏ YETİŞMƏK ÜÇÜN VASİTƏLƏR

Allah-taala bəşəri bu ali hədəfə çatdırmaq üçün vasitələr yaratmışdır. İnsan onların vasitəsilə özündəki istedadları cücərtmiş, yetişdirmiş olur.

Bu mühüm hədəfə yetişmək peyğəmbərlər və onların canişinlərinə itaət etmədən qeyri-mümkündür.

Buna görə də Qurani-kərim Allaha yetişmək üçün bizə vasitələrdən yapışmağımızı əmr etməkdədir: “Ey iman gətirənlər! Allahdan qorxun, Ona (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın!” (“Maidə”, 35).

Əlbəttə, aydındır ki, bu məsələ müşriklərin etiqadından fərqli bir şeydir. Onlar bütlərə ibadət etməklərini belə ifadə edirdilər: “Allahı qoyub (bütləri) özlərinə dost tutanlar: “Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!” (deyirlər)” (“Zumər”, 3).

Ona görə ki, müşriklər bütlərin məxluq olmaqlarını etiraf etmələrinə rəğmən onları müstəqil təsir sahibi bilir, onlara ibadət (diqqət edin!) edirdilər. Onlar bütləri rübubiyyətdə (idarəçilikdə) müstəqil bilirdilər.

Amma məlum olduğu kimi biz peyğəmbərlər və imamlara (ə) heç zaman belə bir etiqad bəsləmirik. Ona görə ki, onların yeganə üstün xüsusiyyəti və kamalı Allah-taalaya xalisanə bəndəlikləri, Ona doğru qeyd-şərtsiz dəvətləri olmuşdur: “(Ya Rəsulum!) De: “Bu mənim (təbliğ, dəvət) yolumdur. Mən və mənə tabe olan (möminlər) açıq-aşkar bir dəlillə (insanları) Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir (bütün eyb və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur). Mən isə müşriklərdən deyiləm!” (“Yusif”, 108).

PEYĞƏMBƏRƏ VƏ “ZİL-QÜRBA”YA İTAƏT

Peyğəmbərlərə və övliyalara (peyğəmbərlərin canişinlərinə - müt.) itaət Allaha itaət məqsədi daşıyır: “Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik” (“Nisa”, 80).

Allaha məhəbbət izharının şərti Peyğəmbərə itaətdir: “(Ya Rəsulum!) De: “Əgər siz Allahı sevirsinizsə, mənə tabe olun ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!” (“Ali-İmran”, 31).

Risalətin (peyğəmbərliyin) əvəzi (ki, verilməsi zəruridir) “zil-qurba”ya - Peyğəmbər (s) Əhli-beytinə (ə) məhəbbətdən başqa bir şey deyildir: “Allah iman gətirib yaxşı əməllər edən bəndələrimə bununla müjdə verir. (Ya Peyğəmbər!) De: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumluq məhəbbətindən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm” (“Şura”, 23).

Peyğəmbərimizin (s) risaləti və onun əvəzi isə, insanın özünə xeyirdən başqa bir şey deyil: “De: “Mən (bunun müqabilində) sizdən elə bir muzd (mükafat) istəmirəm ki, o sizin üçün olmasın. Mənim mükafatım ancaq Allaha aiddir. O, hər şeyə şahiddir!” (“Səba”, 47).

Bu mənfəət də Haqq-taalaya doğru hərəkətdən başqa bir şey deyil: “De: “Mən sizdən buna (dini,

peyğəmbərliyi təbliğ etməyə) görə heç bir muzd (əvəz) istəmirəm, ancaq Rəbbinə tərəf doğru yol tapmaq diləyən kimsələr istəyirəm" ("Furqan", 57).

Bu hərəkət və istiqamətlənmə o həzrətin (s) Əhli-beytinə (ə) sevgidən başqa bir şeylə həyata keçməyəcək. Buna görə də bizə onlara məhəbbət bəsləmək əmr olunub. Buna əsasən, məhəbbətdə məqsəd onlara məhəbbətə əsaslanan itaətkarlıq olmalıdır.

Bu da Əhli-beytin (ə) Allaha məhəbbət xəttində olmaqlarını çatdırır. Onlar elə bir halda olmalıdırlar ki, onlara sevgi, yaxınlaşmaq elə Allaha sevgi və yaxınlaşmaq sayılsın. Bu da o vaxt mümkündür ki, onlar bütün mənada və həyatın bütün sahələrində Allaha bəndə olmuş olsunlar.

(Bəli, elədir.) Onlar özlərini və bütün məxluqatı ilahi dərgahın fəqirləri bilirdilər. Buna görə də Əhli-beytə (ə) itaət Allah Rəsuluna (s) itaət, ona itaətsə Allah-taalaya itaətdir. Bunun şirklə heç bir oxşarlığının olmaması çox aşkardır.

## SINAQ VƏ ONUN MƏQSƏDİ

Əlbəttə, bu itaət və məhəbbət Allahın böyük sınaqlarındandır. Bununla insanın varlıq cövhəri özünü büruzə verir, haqq axtaranlar digərlərindən ayrılır və bəndəliyin həqiqi nəticələrinə yetişirlər: "İnsanlar yalnız: "İman gətirdik!" - deməlorilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da (həqiqi iman sahiblərini də), yalançıları da çox gözəl tanıyar!" ("Ənkəbut", 2-3).

Bu hətta peyğəmbərlərə də şamil olan bir sınaqdır. Bu sınaq Allahın bilməyi üçün deyil, insanın itaət yaxud günahı həqiqətən seçməsilə (öz) varlıq həqiqətlərini aşkarlaması məqsədi daşıyır. Eynilə il ərzində şagirdlərinin istedadlarına agah olan, amma bu həqiqəti şagirdlərinə aşkar etmək və fəal şagirdi qeyrisindən ayırmaq üçün imtahan götürərək onları imtahandan sonrakı nəticələrə yetişdirən müəllimin rəftarına bənzəyir.

İnsanın nəfsi - dünya və onda olanlara qarşı olan meyllərlə bağlı (bu meyllər onun varlığının bir parçasıdır) olan xilqətinin hədəfini nəzərə almaqla mənfi və müsbət hallara malikdir. Bu halların zahir olması, həyata keçməsi və səmərə verməsi bu sınaqların nəticəsindədir.

## -NƏFSİN MÜXTƏLİF HALLARI-

Maddi yaradılışa uyğun olaraq ilk öncə insanda maddi meyllər özünü büruzə verir. Məsələn: yemək, ailə qurmaq və məskən salmağa olan meylləri buna misal çəkmək olar.

Bu meyllərin hər biri təbii olaraq xüsusi agahlıq tələb edir. Bu üzdən də (qeyri-ixtiyari də olsa) insanda müxtəlif hallar özünü göstərir ki, onların hamısı özünü istəməkdən qaynaqlanır. Məsələn: sahibkarlıq, həsəd, paxıllıq və s. Amma bu hallar tamahkarlıq üzündən baş verdiyi üçün sabit halda olmur.

Sonra yavaş-yavaş əqli qüvvələr özünü göstərməyə başlayır və insan ətraf aləm, özü və məqsədi haqda suallara cavab axtarmağa başlayır. İnsan özündə olan ümumi dərklər əsasında dünya və özü haqda ümumi baxışlar əldə edir. Belə bir zamandır ki, yaradılış nizamı onun üçün tələb olunan məqsədə doğru yol göstərir.

Bu arada Allah-taala sınağın həyata keçməsi üçün başqa şeyləri də yaradıb ki, insan agahlıq üzündən həqiqi yolu həqiqi olmayandan ayırd edərək ona uyğun yaşasın və beləliklə də öz həqiqi istedadlarını çiçəkləndirsin. Həmin şeylər dünya, onda olanlara olan meyl və onlardan istifadə edərək insanı hədəfdən uzaqlaşdırmaq, onu qəflətə salaraq o meyllərdən düzgün istifadə etməyə qoymayan şeytandır.

Bu meyllərin şiddətinə və onların düz yoldan çıxmasına, "pisliyə əmr edən nəfs" ("əmmarə nəfs") deyirlər: "Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər" ("Yusif", 53).

Aydın məsələdir ki, hər düz yoldan çıxmağın da özünə xas olan qəfləti var. Necə ki, İmam Səccad (ə) buyurub: "(nəfs) Qəflət və səhvlərlə doludur".

Nəfs bu halda özbaşına buraxılarsa şeytan onu öz ixtiyarına alacaq, onu öz vilayətinə (hökmranlığına) daxil edəcək: "Biz şeytanları iman gətirməyənlərin dostları etdik... Allahı qoyub şeytanları özlərinə havadar tutmuşdular və özlərinin doğru yolda olduqlarını



güman edirlər" ("Əraf", 27-30)"; pis işləri yaxşı cilvələndirəcək: "Şeytan onlara öz (çirkin) əməllərini xoş göstərmişdi. Bu gün Şeytan onların dostudur (havadarıdır). Onlar (qiyamət günü) şiddətli əzaba düçar olacaqlar!" ("Nəhl", 63); beləliklə də nəfsin o pis işdən xoşu gələcək, onu qəbul edəcək. Buradadır ki, nəfsə "müsəvvələ"-cilvələndirici deyirlər: "Dedi: "Xeyr, sizin öz nəfsiniz sizə bu işi cilvələndirmişdir" (gözəl göstərmişdir) ("Yusif",18 və 83).

Bundan sonra nəfs özünə qayıdaraq peşman olsa və özünü danlayaraq haqq yola dönsə, belə nəfsə "ləvvamə-nəfs"-"danlayan nəfs"- deyirlər: "And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə!" ("Qiyamət", 2).

Nə qədər ki, nəfs öz halları və əməllərindən muğayat olmayıb, onları haqq-hesaba çəkməyib, qarşısındakı maneələri görməyib və onları islah etməyib, ali məqsədlərə nail ola bilməyəcək.

## MƏRİFƏTULLAH (ALLAHI TANIMAQ) YAXUD NƏFSİ TANIMAQ

Yaradılışın əsil hədəfi Allah-taalanı həqiqi şəkildə tanımaqdır. Bu zaman insanın nəfsi də tanınmış olur. Bu mühüm hədəfə yetişmək yalnız bəndəliyə çatdıran vəzifələrin həyata keçrilməsinə diqqətli olmaq və nəfsi mühasibəyə-hesaba çəkməklə mümkün ola bilər. Qurani-kərim bizə bunu əmr edir: "Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır! Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin! Onlar (Allahın itaətindən çıxmış) fasiqlərdir!" ("Həşr", 18-19).

Bu ayədə möminlərə pəhrizkar olmağı tövsiyə edəndən sonra Allah-taala onlara öncə nəfsdən muğayat olmağı, sonra isə nəfsi hesaba çəkməyi tövsiyə edir (mühasibə göstərir ki, müraqibə-nəfsdən muğayat olma-davamlı surətdə yerinə yetirilib, yoxsa yox).

Bu iki məsələ (müraqibə və mühasibə) insanı Allaha doğru daimi diqqətə sövq edir və bu daimi diqqət yavaş-yavaş Allahı tanımaq (mərifət) qapılarını insanın üzünə açır. Bu həqiqi mərifət nəticəsində özümüzün və digər varlıqların Allahla rabitəsini anlayır, əldə edirik. Bu həqiqi rabitənin keyfiyyətinə yetişmək sayəsində nəfsin yüksək ali məqamları (yəqin, aramlıq və razılıq kimi) özünü göstərir.

Belə məqamda nəfs, "mütməinnə", "raziyə" və "mərziyyə" sifətlərinə yiyələnir, Allahın xüsusi bəndələri sırasına daxil olmaq müraciətinin hədəfi olmaq qabiliyyətini qazanır və ona: "Ey xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol! (Onlarla birlikdə) Cənnətimə varid ol!" ("Fəcr", 27-30)- deyilir.

Bunun müqabilində, əgər nəfs əməllər və qəbahətli hallara qarşı olan özünü danlaq halından kənarlaşar



və onlara muğayat olmazsa yavaş-yavaş qarşısına "istidrac" (tədrici şəkildə məhvolma) halı çıxacaq; tövbə etməzsə varlığı ziyana uğrayacaq: "Tərəziləri yüngül gələnlər (pis əməlləri yaxşı əməllərindən çox olanlar) isə ayələrimizə haqsızlıq etdiklərindən özlərinə zərər eləyənlərdir" ("Əraf", 9). Nəhayət Allahın ayələrini inkar edərək, yalanlayacaq: "Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu!" ("Rum", 10). Bu zaman Allahın qəzəbinə düçar olacaq və Cəhənnəmə düşərək kafirlərə yoldaş olacaq.

Əlbəttə, bütün mərhələlərdə şeytanın hücumu və nəfsani istəklərin qələbəsindən hökmən Allaha sığınmaq lazımdır ki, O bizə pənah versin. Necə ki, Öz Peyğəmbərinə buyurur: "Və de: "Ey Rəbbim! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların yanımda olmalarından Sənə pənah gətirirəm, ey Rəbbim!" ("Muminun", 97-98).

## ƏHLİ-BEYTİ (Ə) ZİYARƏT ETMƏYİN SİRRİ

Bu qısa mətləbə diqqətdən sonra Əhli-beytin (ə) özlərini ziyarət etməyə tövsiyə etməklərinin sirri aydın olur. Ona görə ki, bu məsələ Allaha yaxınlaşmaq və hədəfə yetişmək üçün onlara məhəbbət izhar etmək yollarından biridir. Həqiqətdə biz ziyarət etməklə onları son kamala doğru olan hərəkətdə özümüzə ülgü seçmək istəyirik. Yoxsa bu işdə məqsəd xoşgüzaranlıq, nəfsani meylləri doyuzdurmaq, maddi mənafelərə yetişmək deyil.

Buna görə də o cənablar (ə) öz ziyarətnamələrində tövhid, risalət, məad, vilayət, əxlaqi və tərbiyəvi məsələlərdən ibarət olan İslam maarifi külliyyatını xatırladıblar ki, biz o əxlaqi və nəfsani səciyyələrə inanmaq, onlara sahib olmaq sayəsində Allaha yaxınlaşmaq ləyaqətini qazanaq.

Bax, belə bir haldadır ki, onları ziyarət etmək Allah-taalanı ziyarət etmək sayılacaq və insanın Cənnətə getməsinə səbəb olacaq.

"Simayi-müxbitin" kitabının müqəddiməsindən
Tərcümə etdi: **D. Şahmərdanlı.**

# Həqiqi mömin olmaq üçün nə etmək lazımdır?

***“Və (tövsiyə etdi ki,) bu (əmrlər) Mənim doğru yolumdur. Buna görə də ona tabe olun və başqa yollara tabe olmayın ki, sizi Onun yolundan (sapdıraraq) pərakəndə edər. Bəlkə təqvalı olasınız deyə, Allahın sizə tövsiyə etdiyi bunlardır”. (“Ənam” 153).***

Hər bir müsəlman mömin olmağa çalışır və cəhd edir. Bu yolda Məsumları (ə) özünə örnək və nümunə qərar verir. Hər bir müsəlman mömin ola bilər, bəs bunun üçün nə lazımdır?

**1. Güzəşt etməyi bacarmaq.**

“Yaxşı iş (gözəl əqidə, əməl və söz) ilə pis iş əsla bir deyil. (Buna görə də sənə yetişən pislikləri) ən gözəl üsulla dəf et. Onda səninlə arasında düşmənçilik olan şəxs birdən (elə dəyişər ki,) sanki yaxın dost və qohumdur”.(“Fussilət” 34).

Güzəşt etmək və bağışlamaq gözəl əxlaq xüsusiyyətlərindəndir ki, müştərək həyatda müsbət təsirə malikdir. Həm ailədə və həm də cəmiyyətdə güzəşt sifəti yayılarsa insanların ruhiyyəsi daha sağlam olar. Güzəşt etmək böyüklük və kəramətin nişanəsidir.

**2. Çalışmaq.**

“Gecə dincəlməniz və (gündüz iş-güc ilə) Allahın fəzl və kəramindən (ruzi) axtarmanızdan ötrü sizin üçün (Yer kürəsinin hərəkəti ilə) gecə və gündüzü yaratması Onun (Allahın) mərhəmətindəndir. Bəlkə şükür edəsiniz!”. (“Qəsəs” 73).

Ruzi qazanmaq üçün çalışmaq və zəhmət çəkmək - hər bir mömininin vəzifəsi olmalıdır. Əgər Məsumların (ə) həyatına nəzər salsaq, görərik ki, onlar da bu yolda heç bir səylərini əsirgəməyiblər. Hər kim bu yolda səhlənkarlıq etsə, həqiqi mömin ola bilməz.

**3. Allahı hər bir halda yada salmaq.**

“O kəslər ki, iman gətiriblər və qəlbləri Allahı yada salmaqla rahatlıq tapır. Bilin! Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapır”. (“Rəd” 28). Həqiqi mömin Allahı hər bir halda yada salar, sevincində, qəmində, evlənəndə, ruzi dalınca gedəndə, infaq edəndə...

**4. Qurana və Qiyamət gününə iman bəsləmək.**

“O kəslər ki, sənə nazil edilənə və səndən əvvəl (olub keçmiş peyğəmbərlərə) nazil edilənlərə imanları və axirət (Qiyamət) gününə yəqinlikləri vardır. Məhz onlar (Quranın hidayətindən qabaq) Allahları tərəfindən (fitri və əqli) bir hidayətdədirlər və nicat tapanlar da onlardır (və Quran onları bu məsələlərin arxasınca gələn kamilliklərə hidayət edir. Bu işləri inkar edən kəslərə isə müsbət təsir göstərmir)”. (“Bəqərə” 4-5). Əgər həqiqi mömin olmaq istəyirsinizsə, gərək Qurana və Qiyamət gününə iman gətirəsiniz. Mömin Qurana iman gətirməli, onu oxumalı və əməl etməlidir. Sadəcə iman gətirmək kifayət deyildir.

**5. Nemətlərinə görə şükür etmək.**

“Buna görə də, Rəbbinə həmd və şükür etməklə yanaşı (Onu) pak sifətlərlə mədh et və səcdə edənlərdən ol!”. (“Hicr” 98).



“(Allahı və Onun əzəmət və cəlalını) yada salan və ya (Onun nemətlərinə) şükür etmək istəyən şəxs üçün gecə və gündüzü bir-birinin əvəzləyicisi edən Odur. (Belə edib ki, yada salmaq və şükür etmək birində yaddan çıxsa, onun əvəzi digərində çıxılsın.)”. (“Furqan” 62).

**6. Tövbə etmək.**

“Və dedim ki; «Öz Rəbbinizdən bağışlanmaq diləyin. Çünki O, çox bağışlayandır»”. (“Nuh” 10). Mömin olmaq istəyən hər bir insan günahlarını etiraf etməli və Allahdan bağışlanma diləməlidir. İstiğfar etmək ona həm bu dünyada və həm də axirətdə fayda gətirər. Belə ki, dünyada olan zaman ruzisi artar, hacətlərinin həyata keçməsi üçün hicablar qalxar. Axirətdə isə tövbə edənlərdən sayılar.

**7. İnfaq etmək.**

“Həm də (ənsardan) o kəslər üçündür ki, hicrət və iman evini (Mədinə mühitini) özü üçün yurd seçib onlara tərəf hicrət edənləri sevər, onlara (mühacirlərə) verilən qənimətə görə ürəklərində həsəd duymaz, özləri ehtiyac içində olduqları halda onları özlərindən üstün tutarlar. Nəfsin xəsisliyindən qorunub saxlanılan kimsələr – məhz onlar nicat tapanlardır”. (“Həşr” 9).

Həqiqi mömin ətrafında olan insanlara laqeyd olmamalıdır və ehtiyacı olanlara yardım etməlidir. Bu saydıqlarımız həqiqi mömin olmağın ən az sifətləri idi. Bu yolda səy göstərək və ən azı bu saydığımız sifətlərə yiyələnməyə çalışaq.



# İnsan və onu əhatə edən kodlar..

**Bir neçə müddət idi ki, insanlar və kodlar haqqında araşdırmalar aparırdım və araşdırmalarım vaxtı çox-lu maraqlı faktlara rast gəldim. Əvvəlcə "kod nə deməkdir" anlayışını qısaca şərh edim. Kod istənilən şəxsin doğum ilinin sadə ədədlə ifadəsidir ki, bunu tap-maq üçün çoxədədli rəqəmləri birədədli rəqəməcən yuvarlaqlaşdırmaq lazımdır. Məsələn: 1993-cü ili götürək. 1993-də olan ədədləri biri-birindən ayıraraq bir-birilərinin üstünə gəlib, alınan cavabı da eyni qayda ilə yuvarlaşdırsaq, 1993-cü ilin kodunu tapmış olarıq. 1+9+9+3 = 22 = (2+2)= 4**

Demək 1993-cü ilin kodu 4-dür. Bu cür hesablamaqla istənilən ilin hansı kodda olduğunu tapmaq olar.

Araşdırmalarımdan belə aydın oldu ki, insan 9 kodunda yaranıb. Məsələn: insan 9 ayda dünyaya gəlir, Hicri aylarından Ramazan ayı insanların ayı sayılır və 9-cu aydır. İnsanın sol əlinin içində ərəb rəqəmi ilə 81 yazılıb ki, bu da kodlaşmada 9 deməkdir, 8+1=9. Sağ əlinin içində isə 18 yazılıb ki, bu da eyni ilə sol əldə olduğu kimi kodlaşmada 9 deməkdir. 1+8=9.



Bu rəqəmlərin bir başqa mənası, 81+18 = 99, Allahın adlarına işarədirsə, digər mənası, 81-18=63, Məhəmməd (s) Peyğəmbərin yaşına işarədir.

Məhəmməd (s) peyğəmbər (569-632) 569-cu ildə dünya-ya gəlib ki, həmən ilin hansı kodda olduğunu tapmaq üçün bayaqkı sadə hesablamadan istifadə etmək kifayətdir. 5+6+9= 20 = 2. demək Peyğəmbərimizin doğum ilinin kodu 2-dir. Çox maraqlıdır ki, Peyğəmbərimizin ölüm ilinin də kodu ikiyə bərabərdir. Bildiyimiz kimi, Peyğəmbərimiz 632-ci ildə vəfat etmişdir 6+3+2 =11=(1+1)= {2}

Demək Peyğəmbərimiz {2} kodunda anadan olub və vəfat edib. Maraqlı faktlardan biri də odur ki, "Qurani-Kərim"də "Muhəmməd" surəsinin də kodu 2-dir. Bildiyimiz kimi, "Qurani-Kərim"də "Muhəmməd" surəsi 47-ci surədir ki, sadə hesablama ilə bu surənin də kodunun ikiyə bərabər olduğunu söyləmək olar. 4+7 =11=(1+1) ={2}

Sonrakı araşdırmalarım zamanı da maraqlı faktlarla rastlaşdım. Məsələn: "Muhəmməd" surəsi 38 ayədən ibarətdir ki, bunun da kodu ikiyə bərabərdir. 3+8=11=(1+1)={2}

Bildiyimə görə Quranda "Yasin" və "Taha" surələri də Peyğəmbərimizə aid surələrdir. "Taha" 20-ci surədir (2+0=2) və 135 ayəsi var (1+3+5 =9). Yuxarıda qeyd etdim ki, Məhəmməd (s) Peyğəmbər 63 il yaşayıb (6+3=9), "Yasin" surəsi 36-cı surədir (3+6 =9), "Yasin" surəsinin 83 ayəsi var: 8+3=11=(1+1)={2}

Məhəmməd (s) peyğəmbərdən başqa Hz. Xədicə (ə) də 63 il yaşayıb, Hz. Əli (ə) da 63 il yaşayıb, Hz. Fatimə (s.ə) isə 27 il yaşayıb ki, bütün müqəddəslərin kodu 9-a bərabərdir.

Hicri aylarından Şaban ayını peyğəmbərlərin ayı kimi də tanıyırıq. Şaban ayı 8-ci aydır. Məhəmməd (s) adı 8 hərfdən ibarətdir. Quranda 26 (2+6=8) peyğəmbərin adı çəkilir. Cənnətin 8 qapısı olduğu deyilir. İnsan gündə 17 (1+7=8) rükət namaz qılır. Quranda ayələrin sayı 6236-dır ( 6+2+3+6 = 17=1+7=8 ).

Hicri təqvimi 622-ci il Məhərrəm ayının biri başlayıb. 6+2+2=10=(1+0)=1.

Səkkiz rəqəmi ilə bağlı digər maraqlı fakt. Quranda qızıl sözü 8 dəfə çəkilib. Qızılın kimyəvi tərkibi 118 N və 79 P-dən ibarətdir. 118+79=197=(1+9+7)=17=(1+7)= 8

Aytən Hüseynova

*(islamaz.com)*

# Əxlaq elmi müxtəlif elmi-nəzəri baxışlarda



***Şübhəsiz, bütün insanlar xoşbəxtliyi sevir və arzulayırlar. Bu böyük səadətə nail olmaq üçün nəfsin saflaşdırılıb tərbiyələndirilməsi, yəni rəzil əxlaqi sifətləri uzaqlaşdırıb, bəyənilmiş keyfiyyətləri özündə yaratmaq gözəl bir xüsusiyyətdir. Allahın göndərdiyi peyğəmbər və övliyalar da bu yolla getmiş, haqsevərləri bu yola dəvət etmişlər.***

«Qurani-Kərim»də həmin mövzuya açıq-aydın işarə edilərək təkidlə buyurulur:

"And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta)! Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır. Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır". («Şəms»- 8,9)

Əlbəttə, ulu Tanrının and içməyə ehtiyacı olmasa da, bizə mətləbin zəruriliyini anlatmaq üçün bu böyük kəlamın doğruluğuna on bir dəfə and içir. Həmçinin Allah-təala «Qurani-Kərim»in başqa bir yerində sonuncu peyğəmbər Mühəmməd(s)-in göndərilməsini insanların maariflənməsi və tərbiyələndirilməsi üçün əsas səbəb hesab edərək buyurur: "(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara Kitabı və hikməti (Quranı və şəriəti) öyrədər".

Peyğəmbər(s) öz peyğəmbərliyi barədə belə buyurur: "Mən Allah tərəfindən əxlaqi gözəllikləri tamamlamaq üçün göndərilmişəm".

İmam Səccad (İmam Zeynülabidin) (ə) Həzrəti-Mühəmməd(s)-dən belə nəql edir : "Mən Allah tərəfindən əxlaqı saflaşdırmaq və gözəlləşdirmək üçün gəlmişəm".

Həzrəti-Əli(ə) də nəfsin təlim və tərbiyəsində qətiyyətli olmağı xoşbəxtliyin açarı hesab edərək buyurur: "Fərz edək ki, əgər bizim behiştə getmək ümidimiz və cəhənnəm əzabından qorxumuz olmasaydı belə, yenə də əxlaqı saflaşdırma yolunu tutub, nəfsimizi çirkinliklərdən paklaşdırmağın yeri var, çünki səadəti yalnız və yalnız bu yolla əldə etmək olar".

Sonda, belə nəticəyə gəlmək olar ki, müqəddəs dinimizdə ən aktual, diqqət mərkəzində olan, insani keyfiyyətlərə, kamala yetişməkdə əsas rol oynayan ən mühüm məsələ nəfs və ruhun saflaşdırılmasının həyati, zəruri bir qanun kimi müzakirə olunmasıdır.

Həzrəti-Əli(ə) insan ruhunu elə bir əkin sahəsinə oxşadır ki, əgər bu sahəni fəzilət və əxlaqi keyfiyyətlərlə suvarmasan, onun təravəti məhv olub məhsul verməz. Əmirəlmöminin(ə) buyurur: "Əkin sahəsinin suvarmaya ehtiyacı olduğu kimi, insanın da özünü islah və tərbiyə etməsinə həddən artıq ehtiyacı vardır". (Qürərul-Hikəm I c.səh,224)

## Əxlaq nədir?

"Əxlaq" "xülq" sözünün cəmidir. "Xülq" insanın daxili xüsusiyyətləri, «xəlq» isə zahiri forma deməkdir. İnsanlarda müşahidə olunan hər bir əməl, daxili keyfiyyət, hərəkət əxlaq və əxlaqi rəftar adlanır.

"Xəlq" və "xülq" sözləri ərəb mənşəli olub, eyni kökdən götürülmüşdür, lakin məna etibarı ilə bu sözlər bir-birindən fərqlənirlər.

Əxlaq alimləri insanın nəfsani sifətlərini iki hissəyə bölmüşlər:

***1)Fitri (təbii)***

***2)İktisabi (kəsb edilmiş, qazanılmış və ixtiyari)***

Fitri sifətlər insanın nəfsani qüvvəsində zatən yaradılmış keyfiyyətlərdir. Onları əldə etməkdə iradənin və əməlin heç bir rolu yoxdur. Məsələn, Allahaxtarma, ürfan, təbii hiss (metafizika), maraq hissi, haqsevərlik, ədalətsevərlik, başıucalıq və alnıaçıqlıq, şəxsiyyət və müstəqillik, azadlıq və azadəlik, daimilik və kamilliksevərlik, əql, şəhvət, qəzəb və bu kimi daxili hissləri misal göstərmək olar. İnsanın daxili xüsusiyyətlərindən hesab edilən belə hisslər əslində ona əta olunmuş, onun zati və nəfsani qüvvəsi mərhələsində insanı başqa canlılardan ayıran bir imtiyazdır.

İktisabi sifətlər isə əməl və ixtiyar mərhələsində tədriclə qazanılan, fitri sifətlərdən faydalanaraq insan üçün nə isə bir nəticə verən xüsusiyyətlərdir. Əgər fitri

istedad və qabiliyyətlərdən düzgün istifadə olunmasa, iktisabi sifətlər də pis olacaqdır. Bu mərhələdə yaxşı sifətləri əxlaqi keyfiyyətlər, pisləri isə rəzil (alçaq) sifətlər adlandırırlar, belə ki, əgər insanın əməlləri yaxşı sifətlərdən təsirlənmiş olarsa, onu əxlaqi gözəllik, yox əgər rəzil sifətlərdən bəhrələnmiş olarsa, onu əxlaqi çirkinlik deyə qəbul edirlər.

Əxlaqi keyfiyyətlərə yetişmək üçün elmi, əməli təcrübə və çalışmalar lazımdır. İlk növbədə fəzilətli və rəzil xüsusiyyətləri müəyyənləşdirmək, insanın şəxsiyyətindən və həqiqi məqamından xəbərdar olmaq, sonra isə nəfsi-əmmarə (pis işlərə sövq edən qüvvə) ilə mübarizə aparmaq lazımdır. Əgər mübarizə olmasa, insan nəfsani (heyvani) ehtiraslara qalib gələ bilməz. Bu döyüş meydanından qələbə ilə, başıucalıqla çıxmayan insanlar nəfsin fəzilət və gözəlliklərindən məhrumdurlar. Belələri qiyamət və hesab günü ziyan çəkənlərdən olar, necə ki «Qurani-Kərim»də buyurulur:

"O gün ki, nə mal-dövlət, nə də övlad fayda verər! Ancaq sağlam (təmiz, daxildə şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!" («Şüəra»-88, 89)

## Əxlaq elmi müxtəlif elmi-nəzəri baxışlarda

Əxlaqi məsələlərin hər bir hissəsini özünəməxsus bəhsə malik olan müxtəlif nəzəriyyələr əsasında araşdırmaq olar. Biz burada yalnız onlardan ən əhəmiyyətlisinə işarə edirik:

1.nəzəri əxlaq və ya əxlaq fəlsəfəsi,

2.tətbiqi əxlaq və ya əxlaqi-müqarin,

3.əməli əxlaq və ya əxlaqi-üslub. (Əlbəttə əxlaq elmini ictimai, siyasi, iqtisadi, hərbi və.s adlar altında qruplaşdırmaq olar.Biz bəhsin uzanmamasına görə bu bölmələri burada araşdırmırıq.)

Nəzəri əxlaqda əxlaq fəlsəfəsi, yəni əxlaqın bünövrə və əsasından, yaxşılıq və pisliklərin meyarından bəhs olunur. Əxlaqın nisbi və mütləq olması, təbii gözəllik və çirkinliklər, fayda və ziyanlar bu bölmənin diqqət mərkəzində durur.

Tətbiqi əxlaqda müxtəlif nəzəriyyələr müqayisə edilir, onları araşdırdıqdan sonra ölçü və prinsiplərinə uyğun aralarından ən yaxşısı seçilir. Yuxarıdakı mövzunun nə qədər faydalı və zəruri olmasına baxmayaraq, biz bu haqda danışmaq fikrində deyilik. Əgər Allah bizi müvəffəq edərsə, bu barədə söz açarıq.

Bu yazıda əməli əxlaq barədə söhbət açılacaqdır. Əlbəttə, başqa mövzulara az da olsa, toxunmaq istərdik. Əməli əxlaq dedikdə onun təlim və tərbiyəsində zəruri olan, təcrübi yolla bizi hədəfə yaxınlaşdıran bir sıra xüsusi qayda və qanunlar nəzərdə tutulur. Şübhəsiz, təcrübi sözü burada qəlbən edilən (niyyət, məhəbbət, nifrət, bədgümanlıq, həsəd, kin, təvazökarlıq, təkəbbürlük və s.) və bunun nəticəsində hərəkətimizlə reallaşdırdığımız əməllər mənasını ifadə edir.

## Əməli əxlaqın əhəmiyyəti

Əxlaq elmində əməl insan xarakterinin göstəricisi olduğundan diqqət mərkəzində durur. Başqa sözlə desək, əxlaq elmində ədəb və hökmlər hüquqi və məsuliyyət cəhətdən deyil, faydalı olduğundan araşdırılır. Məsələn, əgər bir şəxsdə nadir hallarda, təsadüfən bir hərəkət müşahidə olunursa, fiqhi və hüquqi cəhətdən beşlik hökmlərin birinə-vacib, haram, müstəhəb, məkruh, mübah aid olmasına baxmayaraq, bu, əxlaq elmi çərçivəsindən xaric bir hərəkət sayılır. Ondan fərqli olaraq, əgər edilmiş hərəkət insanın xasiyyəti ilə birbaşa bağlı olub onun mənəviyyatında iz qoyursa, bu, artıq əxlaq elminin tədqiqat obyektinə çevrilmiş olur. Fiqh və əxlaq elmində ədəb və sünnələrin bir çoxunun birgə qeyd olunması da məhz bu cəhətdən diqqəti cəlb edir, ancaq belə qeydlər müdaxilə və təkrara səbəb olmur, çünki hər iki tədqiqat obyekti bir-birindən fərqlənir. Fiqh elmində söhbət hər bir şəxsin üzərinə düşən məsuliyyətə görə vəzifəsini yerinə yetirməsindən və cəmiyyətdə hüququnun müəyyən edilməsindən gedir. Lakin əxlaq elminin əsas predmeti ali əxlaqi dəyər və insani keyfiyyətlərdir. Əxlaq elmi insan əməlinin faydasından bəhs edir. Belə ki, əgər bu faydanı onun öhdəsindən götürüb əxlaq elmindən kənar etsək, başqa istiqamətə yönəltmiş olarıq.

Əxlaq elmi digər elmlərlə də əlaqədardır. Onları ayıran cəhət isə yenə də mövzunun həmin əxlaqi və dəyərli cəhətidir. Məsələn, əxlaq elmində zərurətə görə nəfsani qüvvələrin və onların arasındakı təsirin necəliyi haqda çoxlu bəhslər vardır. Bunlar bir cəhətdən psixoloji mövzu olduğundan psixologiyaya aiddir. Ancaq əxlaq elmində insanın daxili nəfsani qüvvəsinin müzakirə olunmasına ona görə dəyər verilir ki, onlar insanın formalaşmasına və mənəviyyatına təsir göstərir. Qısaca desək, elm və fəlsəfə əxlaqa və əxlaqi dəyərlərə xidmət göstərə bilər, amma əxlaq elmində daxili qüvvələrin elmi və fəlsəfi cəhəti yox, onların əxlaqi dəyəri müzakirə olunur. Ümumiyyətlə, nəfsani qüvvələr və əməllərin hüquqi və məcburi təsirləri hüquq və fiqh elmi ilə əlaqədardır. Belə ki, insanın nəfsani qüvvəsində olan psixi gerçəklik və reaksiyalar psixologiya elminə aid olan məsələlərdir. Cismin və ruhun qarşılıqlı təsiri və təsir altına düşməsi, nəfsin zatı və kamillik hərəkəti, ölümdən sonra ruhun sağ qalması məsələləri fəlsəfə elminə aiddir. Onu əxlaq elmində müqəddimə və əxlaqi dəyər mövzusunun əsası kimi müzakirə etmək olar.

## NƏTİCƏ

Əmələ qiymət verən amil nəzəri və elmi cəhətdən yox, əxlaqi baxımdan dəyərli olmalıdır. Ola bilsin ki, bir şəxs elm və məntiq cəhətdən fəzilət və kəramət barədə fikir yürüdə bilməsin, amma bir çox fəzilətlərə malik olsun və yaxud əksinə, biri elmdən xəbərdardır, lakin bu elmin fəzilət və kəramətindən faydalana bilmir. Əmirəlmöminin Əli(ə) buyurur: «Elə alimlər vardır ki, cahillik və nadanlığı onu məhv edir, lakin elm və biliyi

onun harayına yetişmir".("Nəhcul-Bəlağə", Feyzul-İslam, hikmət-104)

Bu nadanlıq və cəhalət həmin əxlaqi-mənəvi çatışmamazlıqlardır ki, alimi məhv edir. Buna görə də əxlaq fəzilət və rəzalət meyarıdır. Burada ədalətə hüquqi və ictimai məsuliyyət kimi yox, əxlaqi dəyər kimi yanaşılır, yəni ədalət əxlaq elmində fəzilət və kəramət kimi hesab olunursa, fiqh və hüquq elmində isə hüquqi-ictimai amil kimi qəbul edilir. Əgər əxlaqi baxımdan ədaləti qəbul etmək könüllü və ixtiyaridirsə, hüquqi cəhətdən isə o, ictimai əhəmiyyətə malik olduğu üçün məcburidir. Aydındır ki, bir şəxs ədalətə cəzanın qorxusundan riayət edirsə, öz qanuni vəzifəsini yerinə yetirmiş olur, lakin əxlaqi nəzərdən bunun heç bir fayda və təsiri yoxdur, çünki ədalət seçimi yalnız fəzilət və güzəştin təşəkkülündə qiymətli hesab edilir.

İtaət adətən qorxu, ümid və zor tətbiq etməklə mümkün ola bilər. Seçim və ixtiyar isə onun əksi olaraq, fədakarlıq, istək, eşq və rəğbətdən doğur. Əli(ə) eşq və məhəbbətlə edilən ibadəti azadələr ibadəti adlandırır, ancaq qorxu və mükafat ümidi ilə edilən ibadəti isə qullar və tacirlər ibadəti adlandırmışdır. Əxlaqi fəzilətlər fitri bünövrədir. Əlbəttə məsuliyyətin ağırlığına dözməyənlər də var. Amma əxlaqi dəyərlərsiz və qayda-qanunla yaşayan az adam tapılar. Hətta aşkarda ,əxlaqı inkar edənlər belə öz hüquq və azadlıqlarını ciddiyyətlə müdafiə edir hüquqlarının pozulmasından ikrah hissi duyur, özləri bağladıqları əhd-peymana sadiq qalmasalar da, başqalarının onlara qarşı vəfalı olmasını istəyirlər. Belələri əxlaq və əxlaqi fəzilətləri inkar etsələr də, heç vaxt başqalarının üstünlüyünü qəbul etmirlər. Bütün bunlar əxlaqi dəyərlərin fitri olmasına ən yaxşı dəlildir. Bir sözlə, əgər ehtiras və şəhvət hissləri cəmiyyətə hakim kəsilərsə, onun uçuruma doğru yuvarlanmasına və yaxud əksinə, əgər əxlaqi və insani fəzilətlər cəmiyyətdə rəvac taparsa, bütün insanların əmin-amanlıq, xoşbəxtlik içərisində yaşamasına heç bir şübhə yeri qalmaz.




Sonda belə bir nəticəyə gəlmək olar ki, əxlaq elminin predmeti əxlaqi keyfiyyətlərdir. Əxlaqi qayda və qanunlar mənəvi dəyərlərdən hasil olan qanunlardır.

Bəzən hüquqi cəhətdən qəbahət sayılmayan bir hərəkət, əxlaqi baxımdan böyük günah, mənəvi aşınma, nöqsan hesab edilir. Məsələn, fiqh və hüquqda insanlar pis niyyətə görə cəzalandırılmırlar, lakin əxlaq elmində niyyət əsasdır. İnsanlar niyyətləri ilə biri-birindən fərqlənirlər. Həmçinin bir işin ictimai maraq və fərdi ehtiyaclar üzündən rəva görülməsi və fiqh elmində də bunun mübah (izn verilmiş, haram və məkruh olmayan) hesab edilməsi mümkündür, amma onun mənfi əxlaqi təsirlərini nəzərdən qaçırmaq olmaz. Məsələn, insan xasiyyət və psixikasında yaratdığı fəsadları unudaraq yalan danışmağa, qeybət etməyə məcbur olur. Əxlaq alimləri belə tövsiyə edirlər ki, tövriyə (həqiqəti yalan olmadan dolaysı yolla gizlətmək və başqa cür göstərmək) etmək imkanı olan yerdə yalan danışılmasın.

Əlbəttə, əməllərdən bəzisi həm fiqh və həm də əxlaq elmində qadağan olunmuşdur. Məsələn, qeybət, yalan, töhmət və s. Lakin hər iki elm bu məsələlərə müxtəlif prizmalardan yanaşır. Fiqh elmi mövzunun hüquqi cəhətini öhdəsinə götürür, əxlaq elmi isə əxlaqi fəzilət və qəbahətləri şərh edir. Məsələn, qeybətin iki cəhəti vardır: birinci cəhət odur ki, qeybət mömininin əziyyətinə və hörmətinin aradan getməsinə səbəbdir. Bu da fiqh elmində haram əməllərdən və böyük günahlardan hesab olunur. İkinci cəhət bundan ibarətdir ki, qeybət ruhi xəstəliyin bir növüdür. Bu isə ali insani dəyərlərə ziddir. Təkrar etməklə də insanı öz həqiqi simasından çıxarıb onu yırtıcı heyvana döndərir. Məhz mövzunun bu tərəfi əxlaq elminə aiddir. Birinci hissədə qeybəti olunanın razılığını (halallığını) əldə etməklə qarşısını almaq olar. İkinci hissədə isə təkcə halallıq almaq kifayət etmir. Burada qəlb aynasının paklanmasına görə ibadət, dua və istiğfara ehtiyac vardır. Odur ki, fiqh elmi təkcə hökmləri bəyan etməklə kifayətlənir, əxlaq elmi isə günahın qarşısının alınması və mənəvi xəstəliklərdən bəhs edir.

**«Quran»da qeybət din qardaşının meyidini yeməsi kimi təsvir olunmuşdur. Həqiqətin araşdırılması əxlaq elminə aid olan bir xüsusiyyətdir, belə ki, insanın qeybət etmək yalan danışmaq nəticəsində yırtıcı, vəhşi heyvan dərəcəsinə və yaxud cansız üfunətli meyit surətinə düşməsi barədə aparılan tədqiqatlar sırf əxlaq elmi əhatəsində olan bir mövzudur.**



**Hədd bilməyən qüvvələr**

Şübhəsiz, bütün insanların vücudunda batini və zahiri hərəkətlərə təsir göstərən fitri qüvvələr vardır. Həmin qüvvələrin ən əhəmiyyətlisi bunlardır: haqsevərlik, ürfan və Allah eşqi, kamala yetişmək duyğusu, gözəllik, maraq, ədalətpərəstlik, fədakarlıq, mənfəətpərəstlik, özünüsevmə, şəxsiyyətə pərəstiş, dünyaya bağlılıq, zənginlik arzusu, vəzifəpərəstlik, şəhvət, qəzəb və s.

Bunlar insan xislətində fəzilət, rəzalət və ziddiyyətlərin yaranmasında xüsusi rol oynayır. Bu qüvvələrin hidayət və islahetmə baxımından təsiri və təsirə uğramasını öyrənmək zəruridir. Pis xüsusiyyətləri yaxşıdan ayırmaq, ali məqsədlərlə dar düşüncəli fikirləri fərqləndirmək özünü tanımağa bağlıdır. İnsan təkamülə gedən yolun vasitələrini tapmadan və onu düz yola yönəltmədən kamala yetişə bilərmi?!

Əxlaq elmi haqsevər insanlar üçün gözəl bir bələdçidir. Bu elm onun dəyərlərini tanıdır, vasitələrini əldə etməyi öyrədir, bu yolda olan maneə və əngəlləri açıqlayır. Məsələn, insanın fitri qüvvələrindən biri də özünüsevmədir. Bu qüvvə insan fəaliyyətinin əsas mənşəyidir. O, həyata bağlılığından və əbədi yaşamaq istəyindən bu hədəfə yetişmək üçün bacardıqca çalışır. Özünüsevmə qüvvəsi düşmən tərəfdən gələn təhlükə ilə üzləşəndə insanı var gücü ilə özünü müdafiə etmək məcburiyyətində qoyan bir qüvvədir. Beləliklə, qüvvələrin insan vücudunda olması bütün əməllərin mənşəyi və onun hərəkətvericisidir.

**Qeyd:**

İslam əxlaqında əməlin keyfiyyət və həqiqi dəyərinin düşüncə növünə və məqsədə bağlı olmasını bilmək lazımdır. İşin təkcə zahiri dəyərləri mənfi və müsbət anlayışına meyar deyildir. Niyyət o qədər mühümdür ki, insan taleyinin aqibətini onunla qabaqcadan müəyyən etmək olar.

Əslində, insan, tayfa, qəbilə, millətlərin taleyi onların niyyət və məqsədinə bağlıdır.

Allah-təala «Qurani-Kərim»də buyurur: “Hər hansı bir tayfa öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca) Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz”. («Rəd»-11)

Diqqəti cəlb edən odur ki, xarici faktorlarla yanaşı, daxili amillər də insanın düşüncə və niyyətinin formalaşmasında mühüm rol oynayır. Məlum olduğu kimi, daxili amillər iki cürdür: təbii və iktisabi (sonradan əldə edilmiş).

Təbii amillər insan vücudunda təbii yaranmış hissiyyat və qüvvələrdən ibarətdir. İktisabi amillər isə insanda zaman keçdikcə ixtiyari olaraq rəftar və əməllərinin təsiri nəticəsində meydana gəlmiş nəfsani sifətlər, adətlərdir. Bütün hallarda insan fəaliyyəti bu faktorlardan təsirlənir. Onlar insan hərəkətinin və qətiyyətinin təkanverici amilləridir. İnsanda olan bacarıq və qabiliyyətlər bu çərçivə əhatəsində işlədilir. Özünüdərkə, qüvvələrin normallaşdırılmasına, nəfsin təlim və tərbiyəsinə olan bütün bu təkidlər amillərin insan əməlində və onun keyfiyyətində nə kimi rol oynadığına görədir, belə ki əməl ruhun formalaşmasında qarşılıqlı olaraq təsir qoyur. Həmin qarşılıqlı təsir həmişəlik davam edir və heç vaxt insan bu çarpışmadan xilas ola bilmir. Şəhvətpərəst, qarınqulu şəxsin yemək-içmək və şəhvətdən başqa bir fikri yoxdur. Özünü islah etmiş, haqsevər insanın isə Allaha ibadət və onun bəndələrinə xidmət göstərmək fikri vücuduna hakim kəsilmişdir. Qorxaq, ağciyər şəxs düşmənlə üzləşəndə yolunu yalnız qaçmaqda və təslim olmaqda görür. İgid, qorxmaz insan isə mübarizə və döyüşü həmişə gözündə tutmuşdur. Odur ki, insan nəfsani və fitri qüvvələri islah etməklə hər bir şeyə nail ola bilər. Bunun üçün də insanı islah etmək lazımdır, yəni o, özü özünə sahib olmalı, dünyaya hakim kəsilməlidir, dünya ona yox.

# Peyğəmbərimiz (s) iqtisadi sahədə bizlərə nəyi tövsiyə etmişdir?



***İqtisadiyyat - insan həyatının mühüm sahələrindən biridir. Əgər düzgün proqramlaşdırılarsa, insana daha çox fəzilət qazandırmağa yardım edər. Əgər ona qarşı laqeyd olsa, ya da düzgün yönləndirmədiyi üçün ciddi zəif cəhətlərə malik olacaqdır. Bu halda birinci dəstə qurucu və ikinci dəstə məhvedici olar. İqtisadiyyatın zəif olması insanın fəzilətlərdən və kamaldan uzaq olması üçün mühüm səbəblərdəndir.***

***İslam dini bu məsələdə də insana çıxış yolunu və səadət yolunu göstərir. Həzrət Peyğəmbərin (s) nurani kəlamlarında buna rast gəlmək olar.***

***Həzrət (s) etdiyi duasında yoxsulluğu – küfr və qəbir əzabı ilə bir sıraya qoymuş və ona görə Allaha pənah aparmışdı. Başqa bir duasında Həzrət Peyğəmbər (s) buyurur: "Allahım! Bizim üçün çörək və bərəkət qapısı qərar ver. Bizimlə onun arasına ayrılıq salma. Əgər çörək olmasaydı, biz namaz qılmazdıq, oruc tutmazdıq. Pərvərdigarımızın vacibatlarını yerinə yetirməzdik".***

***Bu hədisdə adı çəkilən çörək - adi çörək mənasında işlənməmişdir. Bəlkə çörək dedikdə Həzrət (s) iqtisadiyyatın mühüm sahələrinə toxunur. Həzrət (s) bu hədislə bildirmək istəyir ki, iqtisadiyyat insanın imanını və əqidəsini zəiflədə bilər. İbadətlərini süstləşdirər. Ancaq bu, o mənanı vermir ki, yoxsul olmaq insanı dindən uzaqlaşdırmalıdır. Bəlkə Həzrət (s) bildirmək istəyir ki: "Yoxsulluq insanı küfr astanasında qərar verir".***

***Bu hədislərdən beş mühüm amili aydın görmək olur. Onların hər birinə ayrıca işarə edək.***

**1. Bilik.**

Peyğəmbəri-Əkrəm (s) iqtisadiyyatda yaxşı nəticələr əldə etmək üçün elm və biliyin mühüm olduğunu vurğulamışdır. Çünki bir insan elmsiz halda bir işi görməyə qalxarsa, həmin işi ancaq xarab və məhv edər.

Ona görə də Həzrət (s) buyurur: "Hər kim elmi olmadan rəftar edərsə, islah etməmişdən əvvəl fəsad törədər".

Ona görə də iqtisadiyyatın inkişaf etməsi üçün elmli və mütəxəssis insanlara ehtiyac vardır.

**2. Proqramlaşdırılmış iş.**

İqtisadi inkişafa yardım edən amillərdən ikincisi isə düzgün proqramlaşdırmaqdır. Həzrət Peyğəmbər (s) buyurur:"Mən ümmətimin yanlış proqramlaşdırmasına görə yoxsul olmasından qorxuram".

Biz elə bir dünyada yaşayırıq ki, ilin dörd fəslində də bol nemətə malikdir. Dənizi, mədənləri, nefti, qazı və başqa nemətləri də vardır. Ancaq bununla belə çox sayda yoxsulun olmasına şahidik ki, bu da düzgün proqramlaşdırılmamağın nəticəsidir. Nemətlər boldur, ancaq insanların bir çoxu yoxsul və ehtiyaclıdır.

Əgər bu sahədə düzgün proqramlar tərtib edilərsə, Allahın lütfü ilə bu bərəkətdən ən yaxşı şəkildə bəhrələnmək olar. Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim güzəranını təmin vetmək üçün düzgün proqram qurarsa, Allah Təala ruzisini verər".

**3. İş.**

İşin və fəaliyyətin əhəmiyyətini göstərmək üçün Həzrət Peyğəmbər (s) işçilərin əlindən öpərdi. O insanlar ki, ruzi qazanmaq üçün çalışırlar, onları Allah yolunda cihad edənlərlə eyni sıraya qoyardı.

Həzrət (s) buyurur: "O kəs ki, ailəsinin ehtiyaclarını təmin etmək üçün zəhmət çəkir, Allah yolunda cihad edən kimidir".

Həzrət (s) tənbəl insanların isə İlahi rəhmətdən uzaq düşdüklərini vurğulayır və buyurur: "O kəs ki, başqalarına yük olar, məlundur. Məlun o kəsdir ki, ailəsini təmin etməz, məlundur, məlun".

**4. Xərcləmək.**

Həzrət Peyğəmbər (s) xərcləyən zaman həm simicliyi qadağan edir və həm də ifratı. Həzrət (s) bizlərə mötədil olmağı tövsiyə edir. Həzrət Peyğəmbər (s) buyurur: "Nə simiclik (bəyənilir), nə də israfçılıq".

"O kəs ki, güzəranını təmin etmək üçün mötədillik edər, Allah ruzisini verər. Hər kim israf edər, Allah onu nakam edər".

**5. Dövlət.**

Həzrət Peyğəmbər (s) buyurur: "5 nəfər vardır ki, mən və hər peyğəmbər onları nifrin edirik: o kəs ki, Allah kitabına nəyisə əlavə edər, o kəs ki, mənim sünnətimi kənara qoyar, o kəs ki, İlahi təqdiri yanlış hesab edər, o kəs ki, mənim itrətimə qarşı Allahın haramını halal bilər, o kəs ki, ümumi malı özü üçün halal bilər və ondan şəxsən bəhrələnər".

İslam dininin nəzərinə görə dövlət, xalqın malına əmanət kimi baxmalıdır. Bu mala qarşı tamahkarlıq göstərməməlidir.

Beləliklə, Peyğəmbərimiz (s) iqtisadiyyatımızı inkişaf etdirmək üçün bizlərə dəyərli tövsiyələr etmişdir. Əgər bu tövsiyələrə riayət etsək, şübhəsiz ki, nailiyyət qazanmış olarıq.

# Ruhla cismin əlaqəsi



**İnsanın ruhundan bəhs edən ayələr iki qrupa bölünür:**

1. Ruhun əvvəl mövcud olub, sonradan insan bədəninə daxil olduğunu ifadə edən ayələr. Məsələn, Allah bəşəriyyətin atası Adəmin (ə) yaranması ilə bağlı belə buyurmuşdur: "Mən palçıqdan bir insan (Adəmi) yaradacağam. Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan (Özümün yaratdığı ruhdan) üfürən (can verən) kimi ona (hörmət əlaməti olaraq) səcdə edin!"[1]

Ayənin zahiri məzmununa əsasən ruh əvvəldən mövcud olmuş, insan bədəninə keçdikdən sonra xüsusi bir vəzifə daşımağa başlamışdır. Əlbəttə, mücərrəd varlığın maddi bir varlığa aid edilməsi, bu ikisindən həqiqi bir növ yaranması ilə bağlı çox fikirlər irəli sürülmüşdür. Sədrül-mütəəllihinin təbirincə desək, bu mövzu ən çətin fəlsəfi problemlərdəndir.

Hər bir halda Quranın bəzi ayələrinə görə ruh bədəndən əvvəl yaranmış, sonradan ona əlavə edilmiş və işıqlandırma funksiyası daşımışdır. Bəzi hədislər də bu ayələri təsdiq edir. Məsələn, "Allah ruhları bədənlərdən iki min il əvvəl yaratmışdır."[2]

2. Ruhun təbiət və bədən genezisindən qaynaqlanan, yəni maddi varlığı, forma və zaman qabığını geridə qoyub ruh mərhələsinə ucaldığını ifadə edən ayələr. Bu ayələr ruhun cismani aksidensiyasını və ruhani əbədiliyini təsdiq edir. Nümunə üçün Qurana baxaq: "Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan - nütfədən xəlq etdik). Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluqa çevirdik. Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!"[3] Ayədəki "biz onu bambaşqa bir məxluqa çevirdik" cümləsi insanın maddi dəyişiklik və maddi inkişaf mərhələsinə aid olmayan fərqli bir mərhələyə keçdiyini göstərir. Əgər belə olmasaydı, "bambaşqa bir varlığa çevirdik" deməzdi. Başqa sözlə, əgər maddi, izah edilən və praktiki elmlərin tədqiq edə biləcəyi obyekt olsaydı, "bambaşqa bir varlığa çevirməzdik" ifadəsini işlətməzdi.

"Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" cümləsi Quranın ən geniş məzmunlu cümlələrindəndir. İnsan yaradılışların ən gözəlidir. Buna görə Müqəddəs Zat yaradanların ən gözəli olur. Çünki Allah-taala bu məxluqu yaratdıqdan sonra "Mən yaradanların ən gözəliyəm" deyir.

İnsanın fiziki inkişaf mərhələləri digər heyvanlar üçün də səciyyəvidir. Yəni nütfə, laxtalanmış qan, ət parçası, sümük və sonda rüşeym mərhələlərini bütün heyvanlar da keçir. Lakin Allah-taala onların yaradılışından sonra "Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" deyə buyurmamışdır. Digər tərəfdən, əgər söhbət yalnız ruhdan gedirsə, mələklər yüksək kamillik və təmizlik səviyyəsinə malik mücərrəd varlıqlar olduqları halda onların da yaradılışından sonra "Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" cümləsi deyilməmişdir.

Allahın "yaradılanların ən gözəli" fikri ilə şərtlənən "yaradanların ən gözəli" səciyyəsi Onun gördüyü işlə izah edilir. Bu səciyyə ayrı-ayrılıqda insanın bədəni və ruhu ilə bağlı deyil. Yəni bu fikrin söylənmə səbəbi təkcə bədən və ya təkcə ruh deyil, mücərrəd varlığın qopmadan, yerini boşaltmadan[4] enərək maddi varlıqla birləşməsi və hər ikisinin insan adlı bir məcuna çevrilməsidir. Bu səbəbdən insan "cəmləşdirən varlıq" adlanır.

İnsan ağılın bütün imkanlarına və ruhdan qaynaqlanan hikmətlərə, həmçinin torpaq, quru (toxunduqda saxsı kimi səs çıxaran), qoxumuş (və ya torpaqdan tədriclə dəyişib başqa şəklə düşmüş) qara və yapışqan palçıq genezisindən qaynaqlanan maneələrə malik olmaqla yanaşı bütün maneələri dəf edərək mələklərin müəlliminə çevrilə bilər. Bu səciyyələrə malik olan insan yaradılışın ən gözəlidir və heç bir məxluqun bacarmadığını edə bilər. Məhz bu səbəbdən də Allah-taala insanı yaratdıqdan sonra buyurmuşdur: "Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!"

"Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər"[5] ayəsinin məzmununa şamil olunanlardan danışarkən Allah özünü ən gözəl yaradan deyərək tərifləmir. Həmçinin daş kimi və ya ondan da möhkəm




qəlbə sahib olanlarla (daş kimi, bəlkə, daha da qatı[6]) bağlı "Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" ifadəsini işlətmir. Bu dərəcəyə insanların yalnız "Şübhəsiz ki, bunda qəlb (ağıl) sahibi, yaxud (moizə edildiyi zaman bütün varlığı ilə) hazır olub (ona cani-dildən) qulaq asan kimsə üçün öyüd-nəsihət vardır!"[7] məzmunlu ayəsindəki məziyyətlərə sahib olanlar aiddir.

"Muminun" surəsinin 14-cü ayəsi ruhun təbiət genezisindən qaynaqlandığını göstərir. Çünki Allah-taala rüşeymi başqa bir məxluqa çevirdi, başqa bir formaya saldı deyə, buyurmuşdur. Əlbəttə, hər bir inkişaf hərəkətverici tələb edir və natamam bir varlıq özü-özünə kamilləşə bilməz. Natamam varlığın hərəkətində hərəkətvericiyə ehtiyac vardır və məqsədə nail olması üçün ona bu kamilliyi bəxş edən ilkin başlanğıca ehtiyac vardır.

Oxşar ifadə "Allah yanında İsa da (İsa atasız dünyaya gəlmiş) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "(Bəşər) ol!" – dedi, o da oldu"[8] Ayələr arasında bir fərq vardır. "Muminun" surəsində Adəmin (ə) nəsli, bu ayədə isə Hz. Adəmin (ə) öz yaradılışı nəzərdə tutulmuşdur. Yəni Adəm (ə) və övladlarının öncə fiziki bədənləri yaranış mərhələlərini keçərək kamilləşir və yalnız bundan sonra fiziki bədən ruhani məxluqa çevrilir.

İsa Məsih (ə) haqqında ifrat və təfritə yol vermiş insanlar iki təzadlı mövqe nümayiş etdirmişlər. Bu ayə onların hər ikisinə cavab ola bilər. Baxmayaraq ki, ayə əsasən ifratçılara cavab olaraq nazil olmuşdur. Məsihin allahlığını, üçlüyünü və ya Allahın oğlu olduğunu qəbul edənlərə gözəl şəkildə cavab verir və onlara "Siz Allahın Adəmin yaranış prosesindəki qüdrətindən xəbərdarsınız. Allah Adəmin (ə) yaranışı zamanı etdiyini İsanın yaranışında etmədi. Çünki İsanın (ə) anası var idi, amma Adəmin (ə) nə anası, nə də atası var idi. Bəs necə olur, Adəm (ə) haqqında əbəs sözlər danışıb, onun Allahın oğlu olduğunu demirsiniz, amma Məsih haqqında deyirsiniz?!" deyə buyurur.

Bu ayədə Adəmin yaranışının iki mərhələdən ibarət olduğu göstərilmişdir: birinci mərhələ "onu torpaqdan yaratdı"; ikinci mərhələ isə "ol!" – dedi, o da oldu" kimi verilmişdir. Torpaqdan yaranış mərhələsi zaman etibarı ilə uzun çəkə bilər. Amma ruhanilik və mücərrədlik mərhələsinə yüksəldikdən sonra artıq zaman öz anlamını itirir. Bu mərhələ, yəni ruhun əlavə edildiyi mərhələ "ol!" – dedi, o da oldu" məzmunu ilə ifadə edilir.

Möminlərin əmiri (ə) buyurmuşdur: "O, nəyisə istədikdə ona "ol" deyir, o da olur. Amma onun kəlamı qulaqla duyulacaq bir səs, eşidiləcək bir fəryad deyil. Allahın sözü yaratdığı felidir."[9]

Allahın sözü maddi qabığı olan söz deyil, əməldir. Buna görə də Allahın əsəri olan bütün kainat ilahi sözlərdir. Allah yağışı yağdırır, ona yağ demir. "Ol, oldu" ifadəsi söz, ifadə, səs, ləhcə və s. deyil, "yaratmaq və yaranışdır". Əlbəttə, Allah bir zaman söz yaradır, bir zaman yağış, başqa bir zaman digər məxluqları. Amma hamısını "ol, oldu" ilə meydana gəlir.

**Cavadi Amuli**
Çevirdi: Famil Şirvanov

---

[1] Sad surəsi/71.
[2] Biharul-ənvar, 58/132.
[3] Muminun surəsi/12-14.
[4] Eniş iki formada ola bilər: 1. Mövcud olduğu yerdən qoparaq enən və yeri boş qalan fenomenlərin enişi, yağış və daş kimi; 2. Mövcud olduğu yerdən qopmadan və yeri boş qalmadan enən fenomenlər, mücərrəd və mənəvi fenomenlər.
[5] Əraf surəsi/179.
[6] Bəqərə surəsi/74.
[7] Qaf surəsi/37.
[8] Ali-İmran surəsi/59.
[9] Nəhcül-bəlağə, 186-cı xütbə.

# Bəlanı, qəmi dəf edən, ölümü təxirə salan, yoxsulluğu aradan aparan zikr

1. Bəlanın və qəm-qüssənin dəf olması. İmam Sadiq (ə) buyurur: "Hər kim gün ərzində yüz dəfə لا حول و لا قوة الا بالله ("Lə həvlə və lə quvvətə illə billəh") deyərsə, Allah 70 növ bəlanı insandan uzaq edər. Onların ən azı - qəm-qüssədir.

2. Ölüm zamanını təxirə salar. İmam Sadiq (ə) buyurur: "O kəs ki, لا حول و لا قوة الا بالله ("Lə həvlə və lə quvvətə illə billəh") 1000 dəfə deyər, Allah Təala Həcc evini ruzisi qərar verər və əgər ölümü yaxın olarsa, Allah onu təxirə salar ki, həcci ruzisi etsin".

3. İmam Hüseynin (ə) kəsilmiş mübarək başının zikri. Dəməşqdə eşidilib ki, İmamın (ə) kəsilmiş mübarək başı deyirmiş: "لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh")

4. Behiştdən bir xəzinə. Həzrət Peyğəmbər (s) buyurur: " لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh")zikrini çox deyin ki, behişt xəzinəsindəndir".

5. 70 bəlanı uzaq edər. Hədisi nəql edən yazır ki, İmam Sadiqdən (ə) eşitmişəm ki, buyurub: "O kəs ki, deyər: ("Lə həvlə və lə quvvətə illə billəh") لا حول و لا قوة الا بالله , Allah-Təala ona xatir 70 növ bəlanı ondan uzaq edər ki, onların ən kiçiyi boğulmaqdır".

6. Ağrını dəf edər. Həzrət Peyğəmbər (s) buyurur: "لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh") - behişt xəzənəsindəndir ki, 99 dərdə şəfa verər".

7. 72 növ dərdə şəfadır. Həzrət Peyğəmbər (s) buyurur: "O kəsə ki, çoxlu nemət çatar, "Əlhəmdulilləhi Rabbil-Aləmin" zikrini çox desin. O kəsə ki, yoxsulluq üz verər, "لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh") zikrini çoxlu desin ki, o, behişt xəzinəsidir. 72 növ bəlanın şəfasıdır".

8. Nə zaman qəmgin olsan. İmam Sadiqdən (ə) nəql edilir ki, buyurub: "Ey Süfyan! Nə zaman Allah sizlərdən birinə nemət verər, dayan və Allah Təalaya şükür et. De: "Əlhəmdulilləh". Nə zaman ruzin geciksə, tövbə et. De: "Əstəğfirullah". Nə zaman qəmgin olsan, de: "لا حول و لا قوة الا بالله"("Lə həvlə və lə quvvətə illə billəh")

9. Bəlanı dəf edər. İmam Sadiq (ə) buyurur: "Nə zaman sübh və məğrib namazlarını qıldın, 7 dəfə de: بسم الله الرحمن





"الرحيم لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh. Bismillahir-Rəhmanir-Rəhim"). Hər kim belə deyərsə, onu cüzam, dəlilik kimi xəstəliklər yaxalamaz. Nə də 70 növ bəla".

10. Yoxsulluğa dərman olar. İsmayil ibni Əbdülxaliq deyir: "Həzrət Peyğəmbərin (s) səhabələrindən biri Həzrətin (s) xidmətinə gec gəlir. Peyğəmbər (s) ona buyurur: "Mənim yanıma gec gəlməyinə səbəb olan şey nədir?" Dedi: "Yoxsulluq və xəstəlik". Buyurdu: "Sənə elə bir dua öyrədim ki, onun vasitəsilə Allah yoxsulluğu və xəstəliyi səndən aparsın". Həzrət (s) buyurdu:

«لا حول و لا قوة الا بالله العلى العظيم ، توكلت على الحى الذى
لا يموت و الحمد لله الذى لم يتخذ (صاحبة و لا) ولدا و لم يكن له
شريک فى الملک و لم يكن له ولى من الذل و كبره تكبيرا.»

11. Sübh namazından sonra 100 dəfə demək. İmam Rza (ə) buyurur: "Hər kim sübh namazından sonra yüz dəfə

بسم الله الرحمن الرحيم ، لا حول و لا قوة الا بالله العلى العظيم

("Bismilləhir-Rahmənir-Rahim. Lə həvlə və lə quvvətə illə billəhil-'aliyyil-'azim")deyərsə, Allahın Əzim adları içərisində gözün qarasından ağına yaxın olar və həqiqətən Allahın əzim adlarının çevrəsində qərar tutar".

12. İmam Əlinin (ə) Kumeylə tövsiyəsi. İmam Əli (ə) Kumeylə xitab edərək, buyurur: "Ey Kumeyl! Hər gün Allahın adını dilinə gətir. De: "لا حول و لا قوة الا بالله" ("Lə həvlə və lə quvvətə illə billəh"). Allaha təvəkkül et, bizi yada sal və bizə salam göndər. Ey Kumeyl! Hər çətinliyə düşəndə də bu zikri de".

13. Evdən çıxan zaman. Əbu Həmzə nəql edir ki, İmam Baqir (ə) evdən çıxan zaman deyərdi: ("Bismilləhi xarəctu, və aləlləhi təvəkkəltu və lə həvlə və lə quvvətə illə billəh")

سم الله خرجت ، و على الله توكلت ، و لا حول و لا قوة الا بالله

14. İmam Cavada (ə) təvəssül etmək. Xəstəlikdən şəfa tapmaq üçün 2 rükət hacət namazı qılın və Həzrət Cavada (ə) təvəssül edin. Sonra 146 dəfə de: ("Məşəallah lə həvlə və lə quvvətə illə billəh")

ما شاء الله لا حول و لا قوة الا بالله

Bu əməli əsr namazının vaxtından başlayaraq, iki saat sonraya qədər etsəniz, daha yaxşı olar.

15. Həccə getmək üçün. İmam Sadiq (ə) buyurur: "Hər kim 1000 dəfə لاحول و لا قوة الا بالله ("Lə həvlə və lə quvvətə illə billəh") zikrini desə, həcc onun ruzisi olar. Əgər əcəli yaxın olarsa, Allah əcəlini təxirə salar ki, həcci ruzisi qərar versin".

16. Çətinliyi aradan aparar. Həzrət Peyğəmbər (s) İmam Əliyə (ə) buyurur: "Nə zaman çətinliyə düşsən, bu duanı çoxlu oxu: ("Bismilləhir-Rahmənir-Rahim, lə həvlə və lə quvvətə illə billəhil-'aliyyil-'azim iyyəkə nə'budu və iyyəkə nəstə'in")

بسم الله الرحمن الرحيم ، لا حول و لا قوة الا بالله العلى العظيم
اياک نعبد و اياک نستعين



17. Şeytan vəsvəsəsinə qarşı. İmam Sadiq (ə) buyurur: "Şeytanın vəsvəsəsini aradan aparmaq üçün əlini sinənə qoy və de:

«بسم الله و بالله محمد رسول الله و لا حول و لا قوة الا بالله العلى
العظيم ، اللهم امسح عنى ما احذر

Sonra əlini qarnının üzərinə qoyub, bu zikri 3 dəfə deyirsən".

( Tebyan/ Deyerler.org )

# QURAN ərəbcədir, ərəblərin deyil

*Quranın fəhmində ərəb dilinə ehtiyac ona görədir ki, bu dil dillər içərisində ən zəngin dillərdəndir. Bu dildə bəzən bir söz bir neçə hətta daha çox mənalar verir. Bu baxımdan Quranın onun tam tərcüməsi də mümkün olmayacaq.*



Sözümə Sayman bəydən sitat gətirməklə başlayıram. Sayman Aruz: "Dədə Qorqud bizim Quranımızdır." Çox maraqlı fikirdir. Soruşan yoxdur ki, ruhanilərin nağıl və dastan danışmasını tənqid edən dostumuz qəhrəmanlıq dastanı "Dədə Qorqud" - u ilahi və bəşəri bir kitab olan Quranla necə müqayisə edir?! Bir xalqın həyat dastanını özündə ehtiva edən "Dədə Qorqud" kitabı necə Quran ola bilər axı, ay Sayman bəy? Dədə Qorqudun özü peyğəmbəri görmüş bir şəxs olub və qəbri də Dərbənddədir. "Dədə Qorqud" dastanının boylarında da 67 dəfə "Bismillah" kəlməsindən istifadə olunub. İndiki mütəfəkkirlərdən fərqli olaraq Dədəmiz Qorqud aşkar şəkildə dini bağlılığını bəyan edib. Hətta bəzi boylarda döyüşə getməzdən öncə 2 rükət namaz qıldığı da qeyd olunur. İndi kim dini motivlərdən istifadə olunmuş bir kitab üzə çıxararsa, onadamı Quran deyəcəksiniz? "Dədə Qorqud"dan danışan, keçmişimizə sahib çıxmaqdan danışan Sayman Aruz Amerikanı misal çəkir bizə. Sayman bəy, Sartrdan çəkdiyiniz "tiryək" misalı isə ümumiyyətlə mövzuya uyğun deyildir.

Amma Sayman bəyin azanın və namazın tərcümə olunmaması barədə dedikləri bəyənilən fikir idi. Amma Quranı sadəcə ərəb mədəniyyəti ilə və onlara xas bir ənənə olması ilə məhdudlaşdırmaq İslamın cahanşümul bir din olmasını məhdudlaşdırır ki, bu fikir də aşkar şəkildə Quranın ziddinədir.

Quranın nazil olmasında mühüm hədəf dil və milliyyət yox, onun ehtiva etdiyi məna və məfhumlardır. Sayman bəyin ərəb imperializmindən xilas olmanın səbəbini məhz Quranın tərcüməsində görməsi də səhv fikirdir. Qeyd edək ki, vəhyin beşiyi olan Hicaz neçə əsr Osmanlı-Türk imperiyasının əsarətində olub. Yaxşı, onlar nəyə görə Quranın ərəbcə oxunuşunu qadağan etməyiblər?! Dini hökümətlə, dindən istifadə edib imperiya yaratmaq, tam fərqli iki məfhumdur. "Ərəbin qaydası, ərəbin qibləsi..." nə bilim ərəbin nəyi? Ay əzizlər, o zaman siz ümumilikdə İslam dinindən imtina edin. Çünki bu dini bəşəriyyətə yayanın özü ərəbdir. Ya da Allahdan imtina edin, çünki türklərdən bir peyğəmbər seçmədi. Bu hansı məntiqdir?!

Quranın tərcüməsi məsələsinə gəldikdə isə Quran İspan, İtaliyan, Türk, Rus, Azəri, Ordu, Çin və s. dillərə tərcümə olunub. İndi bu tərcümələr camaatın ruhanilərə ehtiyac duymaması anlamına gəlir? Bu xalqlar tam olaraq Quranı fəhm edib? Əlbəttə ki, yox. Hələ öz doğma dillərində olan ərəblərin belə Quranın tərcüməsindən tutmuş təfsirlərinə qədər kifayət qədər ixtilafları var. Yaxud da hansı ərəb Quranı götürüb oxuyan kimi onun ehtiva etdiyi mənanı tam başa düşür? Quranın ecazı da elə məhz bundadır. Digər səmavi kitablar da müəyyən dillərə tərcümə olunsa da onların orijinallarının tamamilə kənara qoyulmasının şahidi olmamışıq. Hətta yəhudi və məsihilər də dini mətnlərdəkiləri dərk etmək üçün öz ruhanilərinə müraciət edirlər. Deməməli, tərcümələrin də caamatı tam şəkildə maarifləndirəcəyinə ümid yoxdur. Əgər bu sahənin həqiqi mütəxəssisləri olmasa Quran hansı dilə və hansı millət üçün tərcümə olunur olunsun onun həqiqi məfhumu çatdırılmamış qalacaqdır. Əlbəttə söhbət həqiqi mütəxəssislərdən gedir , Elşad Miri kimi ilahiyyat kəlməsinə artırılmış "çı" şəkilçilərindən yox.

Quranın öz ana dilimizdə fəhminin təqdirəlayiq bir iş olmasını heç kim inkar etmir və edə də bilməz. Əslində maarifçilik xalqımızın öz dinləri ilə tanış olmaları üçün çox önəmli işdir. Əslində biz məktəblərdə Quranın tərcüməsi ilə yanaşı onun orijinal mətninin, yəni ərəbcənin də tədris olunmasının lehinəyik. Quranın fəhmində ərəb dilinə ehtiyac ona görədir ki, bu dil dillər içərisində ən zəngin dillərdəndir. Bu dildə bəzən bir söz bir neçə hətta daha çox mənalar verir. Bu baxımdan Quranın onun tam tərcüməsi də mümkün olmayacaq. Çünki dilimizdə tərcümə olunmuş Quranların hər yeni nəşrində düzəlişlər və səhvlərin aradan qaldırılmasının şahidiyik. Məsələn hamımızın istifadə etdiyimiz "Al-

lah" kəlməsinin ehtiva etdiyi həqiqi mənanı, nə "Tanrı", nə "Бог", nə "Xuda" və nə də "God" kəlmələri çatdıra bilməz.

Əlqərəz, Quran ərəbcədir, lakin ərəblərin yox bütün millətlərin, xalqların, ümumiyyətlə bəşərin kitabıdır. Biz maarifçiliyin və dini savadın artırılmasının əleyhinə deyilik, mariifçilik adında bəzi yeni yaranmış təriqətlər kimi, Quranı da, namazı da, bütün ibadətləri də türkləşdirib milliyyətçilik sərgiləyən bəzi islamdan xəbərsiz reformistlərin əleyhinəyik.

Görünür Quran deyə dad çəkən bu reformistlər həmin Quranın aşağıdakı ayələrini ya oxumayıblar, ya da görməməzlikdən gəliblər:

إِنَّا أَنزَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَّعَلَّكُمْ تَعْقِلُونَ

Həqiqətən Biz onu ərəbcə bir Quran (oxunan və ərəb dilində olan kəlmələr) şəklində nazil etdik ki, bəlkə (onun uca maarifi barədə) düşünəsiniz və ağılla dərk edəsiniz. (Yusif, 2)

قُرآنًا عَرَبِيًّا غَيْرَ ذِي عِوَجٍ لَّعَلَّهُمْ يَتَّقُونَ

(Kəlmə və mənalarında) heç cür əyrilik olmayan ərəbcə bir Quran! Bəlkə çəkindilər. (Zümər,28)

وَلَوْ جَعَلْنَاهُ قُرْآنًا أَعْجَمِيًّا لَّقَالُوا لَوْلَا فُصِّلَتْ آيَاتُهُ أَأَعْجَمِيٌّ وَعَرَبِيٌّ قُلْ هُوَ لِلَّذِينَ آمَنُوا هُدًى وَشِفَاءٌ وَالَّذِينَ لَا يُؤْمِنُونَ فِي آذَانِهِمْ وَقْرٌ وَهُوَ عَلَيْهِمْ عَمًى أُوْلَئِكَ يُنَادَوْنَ مِن مَّكَانٍ بَعِيدٍ

Əgər bunu (bu kitabı) ərəbcədən qeyri bir (dildə) Quran etsəydik mütləq deyərdilər: «Onun ayələri nə üçün aydın və aşkar bəyan olunmayıb?! Ərəb milləti və (onunla heç uyğunluğu olmayan) əcəm sözü?!». De: «(Bu kitabın nazil olmasında hədəf dil deyil.) Bu kitab iman gətirmiş kəslər üçün başdan-ayağa hidayət və (fərdi və ictimai xəstəliklər üçün) şəfadır. İman gətirməyənlərin qulaqlarında bir növ ağırlıq var (ki, onu eşitmirlər). Bu kitab onlara qaranlıq və anlaşılmazdır, (sanki) onlar uzaq bir yerdən çağırılırlar.» (Fussilət, 44)

كِتَابٌ فُصِّلَتْ آيَاتُهُ قُرْآنًا عَرَبِيًّا لِّقَوْمٍ يَعْلَمُونَ

(Bu,) elm əhli olan bir dəstə üçün ərəbcə bir Quran halında ayələri ayrılaraq müfəssəl açıqlanmış (kəlmələri surə və ayələrə bölünmüş və məzmunu dinin hökmləri, axirət təlimləri və dünyəvi elmləri əhatə edən) bir kitabdır. (Fussilət, 3)

Bəhruz Əlizadə



# Həzrət Peyğəmbər (s) yatmazdan əvvəl hansı əməlləri tövsiyə etdi?

***Övladın xoşbəxt olması hər bir ata və ananın arzusudur. Xüsusilə də o zaman valideyn özünü xoşbəxt hiss edir ki, övladı mənəvi kamala çatır.***

***Həzrət Fatimə (s.ə) nəql edir: "Yatağımı sərən zaman Rəsulallah (ə) mənə buyurdu: "Ey Fatimə! Gecə dörd əməli görməmiş yatma!***

***1. Quranı xətm et!***
***2. Bütün peyğəmbərləri (ə) öz şəfaətçin qərar ver.***
***3. Bütün möminləri özündən razı sal.***
***4. Həcc və ümrəni yerinə yetir".***

***Çox təəccübləndim. Həzrət (s) bunu buyurdu və namaz qılmağa başladı. Səbr etdim ki, namazı bitsin. Dedim: "Ya Rəsulallah! Mənə dörd şeyi əmr etmisən, ancaq mən onlara qadir deyiləm".***

***Həzrət (s) gülümsədi və buyurdu:***

***"İxlas" surəsini üç dəfə oxusan, Quranı xətm etmiş kimi olarsan.***

***Mənə və məndən əvvəlki peyğəmbərlərə (ə) salavat göndərsən, Qiyamət günü sənin şəfaətçin olarıq.***

***Möminlər üçün istiğfar etsən, onların hamısı səndən razı olarlar.***

***"Təsbihati-ərbəəni" desən, həcc və ümrəni yerinə yetirmiş olarsan".***



# QURANda təkamül nəzəriyyəsi



**SUAL**

***Mən insanın yaradılışı ilə bağlı Darvinin təkamül nəzəriyyəsi və İslamın baxışı barədə araşdırma aparmışam. Bu yaxınlarda milli kanaldan bir verilişə baxdım. Bu verilişdə Darvinin təhlükəli nəzəriyyəsi Quran ayələri yolu ilə sübut edilirdi. Ayələrdən biri aşağıdakılardan ibarətdir: "Sizə nə olub ki, Allahın əzəmətindən çəkinmirsiniz? (Sizə nə olub ki, Allahın əzəmət və qüdrətindən qorxmur, Onu layiqincə uca tutmursunuz? Yaxud iman gətirəcəyiniz təqdirdə Allahın axirətdə sizə mərhəmət ata edəcəyinə ümid bəsləmirsiniz?) Halbuki O sizi cürbəcür (və ya müxtəlif mərhələlərlə - əvvəl nütfə, sonra laxtalanmış qan, sonra bir parça ət və nəhayət, insan şəklində) xəlq etdi. Məgər görmürsünüz ki, Allah yeddi göyü (bir-birinin üstündə) qat-qat necə yaratdı?! Orada ayı bir nur, günəşi də bir çıraq etdi. Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi göyərtdi. Sonra sizi yenə ora qaytaracaq və (qiyamət günü dirildib oradan da) çıxardacaqdır." ("Nuh" surəsi, 13-18)***

**CAVAB**

Qurani-kərim ayələrinin zahiri görünüşü transformizm və Darvinin növlərin təkamülü nəzəriyyəsi ilə ziddiyyət təşkil edir. Təkamüllər (inkişaf mərhələləri) ləfzinin bu nəzəriyyə ilə əlaqəli olmasının heç bir sübutu yoxdur. (inkişaf (və ya təkamül) mərhələləri dedikdə, Həzrət Adəmin torpaqdan yaradılması , insanın nütfə, rüşeymdən (embrion) onun dünyaya gəlməsinə qədər müxtəlif mərhələlərdən xilqətinə işarə etmək nəzərdə tutulur. Beləliklə, uşaqlıq, cavanlıq, qocalıq və s. kimi bu cür müxtəlif şəkilləri də aid etmək olar). "Və Allah sizi yerdən (torpaqdan) bir bitki kimi göyərtdi" ("Nuh" surəsi, 17) kimi buyurulmuş ayə nəticə etibarı ilə, həmin torpaq komponentləri mənasındadır ki, xüsusi və özəl bir tərkibdə qida məhsullarında qərar tutub, daha sonra nütfəyə çevrilir və siz ondan hasil olursuz. Bu ayə Adəmin özünü deyil, əsasən Adəm övladlarını nəzərdə tutur. Belə ki, "kum" (siz) xitabı xitab olunanlara aid edilir ki, Həzrət Adəm və Həvva bu zümrəyə aid edilmir.

Darvinin nəzəriyyəsi bir elmi fərziyyədir ki, hələ sübuta yetirilməmişdir. Biologiya elmlərində onun əleyhinə tutarlı dəlillər var və bu sahənin alimlərindən bir çoxu bu elmi fərziyyəni qəbul etməyiblər. Belə bir fərziyyə möhkəm (sabit) Quran ayələri ilə müqayisə oluna bilməz və bunun müqabilində üstün tutula (tərcih edilə) bilməz. (Qurani-kərimdə Adəm əleyhissəlamn yaradılışı ilə əlaqədar mətləbləri geniş şəkildə Əllamə Təbatəbainin "Əl-mizan" təfsiri 4-cü cild, "Nisa" surəsinin 1-ci ayəsinin təfsirində axtarış aparmaqla tapa bilərsiz)

Ola bilər ki, alimlərdən bəziləri bu əqidəyə malikdirlər ki, təkamül nəzəriyyəsinin qətiliyinin düzgünlüyü və növlərin təkamülü ehtimalını digər Quran ayələri ilə əldə edilir. Əlbəttə, bu nəzər müxtəlif izahlara (əsas) malikdir. Məsələn, bir dəstə deyir, Qurani-kərimin Adəm və Həvvanın yaradılışı barədə bəyanı simvolikdir (rəmzidir). Başqa bir dəstə deyir ki, Darvin nəzəriyyəsinin düzgünlüyü fərzində Adəm və Həvvanın yaradılışı istisnadır. Digər bir dəstə isə, belə deyir: Quran ayələrini bu nəzəriyyə əsasında tətbiq etmək mümkündür.

Fərid Abdullah

*"Hövzə" saytının materialı əsasında*

# DƏSTƏMAZIN TİBBİ FAYDALARI



***Namaz qılmaq və bir çox digər ibadətlər üçün dəstəmaz almaq şərtdir. Görəsən ən azı hər namaz vaxtı zəruri qəbul edilmiş dəstəmaz almağın nə kimi hikmət və faydası vardır?***

DƏSTƏMAZ ALDIQDA:

* Orqanizmdə yığılan elektronlar atılır. Bunun sayəsində elektronların orqanizmimizdə buraxmış olduğu narahatlıq və gərginlik halı aradan qalxır. Bildiyimiz kimi, sağlam bir bədənin təməl quruluşu statik elektrik tarazlığıyla çox yaxından əlaqəlidir. Havanın elektrikindən sintetik geyim əşyalarına və mebellərə qədər bir çox faktorlar bədəndəki statik elektrik tarazlığı pozaraq ciddi problemlərə gətirib çıxarır. Bu gün dəstəmazın möcüzəvi təsirlərindən xəbərsiz olanlar, bədənlərindəki elektrostatik tarazlığı qorumaq üçün min bir yola müraciət etməkdədirlər. Müsəlmanlar isə gündəlik dəstəmaz almaqla orqanizmdə yığılmış artıq elektronlardan azad olurlar. Bundan əlavə, statik tarazlığın pozulmasının ən mənfi təsiri dəri altındakı kiçik əzələlərdir. Bu əzələlərdə olan gərginlik səbəbindən dəridə, xüsusən də üz dərisində erkən qırışlar əmələ gəlir. Dəstəmaz vasitəsiylə bu kimi xoşagəlməz hallardan qurtulmaq mümkündür. Necə ki, davamlı olaraq namaz qılan şəxslərin dərilərində dəstəmazın təmin etdiyi parlaqlıq və gözəllik asanlıqla seçilə bilməkdədir.

Peyğəmbər (s) və Əhli-Beyt İmamlarından (ə) nəql olunan hədislərə əsasən, dəstəmazlı olmaq üzü nurlandırar və insanı gözəlləşdirər.

* Qan dövranı güclənir, ürək-damar xəstəliklərinə tutulma ehtimalı azalır.

Qan dövranı ürəkdən toxumalara, toxumalardan da ürəyə olmaq şərtilə «iki istiqamətli axın» içində davam etməkdədir. Bu axın, xüsusilə də toxumalarda tükdən incə borular vasitəsilə cərəyan edir. Bəzən bu incə damar sistemi daxildən qida artıqlarıyla və müxtəlif səbəblərlə daralır. Halbuki orqanizmin sağlam fəaliyyəti üçün bu damarların rezin kimi elastik və daralmamış olması lazımdır. Dəstəmaz və ya qüsl alındığı zaman dərimizə dəyən fərqli istilikdəki su damarların bir dalğalanmaqla açılıb bağlanmasını və tıxanmağa başlayan damarların açılmasını təmin edir.

Bədən toxumalarında yığılıb qalan artıq maddələr ümumi dövrana keçir və beləcə toxumalarda böyük bir gümrahlıq əmələ gətirir.

* Orqanizmə aid qoruma sisteminin təməli olan linfa dövranı ən yüksək səviyyədə işləyir.

Bildiyimiz kimi, insan bədəninin təməl qoruma sistemi ağ qan dövranıyla (Linfa dövranı) təmin olunur. Bu dövran nəticəsində damarlar tenfosit dediyimiz ağ qan hüceyrələrini toxumaların ən künc nöqtələrinə qədər aparırılar. Bədənin hər hansı bir yerində mikrob, xarici maddə və xüsusilə də xərçəng hüceyrəsi varsa, bu kiçik döyüşçülər daşıdıqları qüvvətli zəhərlərlə onları öldürürlər. Dəstəmaz alınarkən bədən mərkəzinə uzaq olan bu nöqtələrdəki damarların dövran sürətləri artırılır. Çünki, dəstəmaz əsnasında təmas olunan üzvlər, linfa sisteminin ən əhəmiyyətli nöqtələrini əhatə etməkdədir.

Beləcə, dəstəmaz bədənin xəstəliklərə qarşı qorunmasında və immunitetin möhkəmlənməsində əhəmiyyətli rol oynayır.

# XEYİRXAH NƏNƏ

## Şahlıq Musayeva Vəli qızının qısa tərcümeyi halı

Şahlıq Vəli qızı Musayeva 1930-cu ildə Gürcüstanın Marneuli şəhərinin Muğanlı kəndində anadan olmuşdur. İlk təhsilini Muğanlı kənd ibtidai məktəbində aldıqdan sonra Azərbaycanın Qazax rayonu İşıqla kəndində orta təhsili davam edir. Sonra Azərbaycan dövlət pedoqoji institutunun Kimiya-Biologiya fakultəsinə daxil olur. 1950-1956-cı illərdə oxuduğu institutu bitirdikdən sonra Gürcüstan maarif nazirliyinin tələbinə görə Tbilisiyə gəlib. Bir sözlə 1956-1957-ci ildən 60 il pedogoji fəliyyəti başlayıb. 15 il oxuyub 45 il Kimiya-Biologiya müəllimi işləyib.

2002-ci ildə O öz evinin həyatyanı sahəsi ilə birgə məscidə bağışlayıb.

2003-cü il sentyabrın 11-də Hz. Məhəmməd (s) adına Muğanlı kənd məscidi elan edilib. 2003-cü ildən Allah yoluna xidmət etməyə başlayıb. Namaz qılıb, oruc tutub, dini kitablar oxumuşdu. Hal-hazırdı Hz. Məhəmməd (s) adına kənd Muğanlı məscidində güzaranını keçirir.

Bu xeyirxah nənə indi 84 yaşında Allah evini ziyarətə gələnləri qəbul edir. Dini mərasimlərin keçirilməsinə xidmət edir.



Məscidimizin ev formasından məscid üslubuna düşməsində kənd əhalisinin və Bakıda, Moskvada və Leninqradda yaşayan həmyerlilərimizin köməyi oldu. O, cümlədən Marneuli şəhərində İmam Əli (ə) məscidində olan fond, Alulbeyt müəssisəsi kömək etdi.

Allah hamısına kömək olsun. Amin!

# AYƏTULLAH MİRZA MƏHƏMMƏDƏLİ ŞAHABADİDƏN İBRƏTLİ HADİSƏLƏR



## Özündən böyüyə de gəlsin!

Şəhid Ayətullah Mehdi Şahabadi deyir:

Rzaxan əmr verdi ki, onun məscidindən minbər götürülsün. Bu yolla məsciddəki söhbətlərin qarşısını almaq istəyirdi. Amma o ayaq üstdə söhbət edirdi. Polis məmurları tez-tez məscidə gəlir, onun minbərlərdə danışdıqlarını yazırdılar. Bir gün polis rəisi məscidə ayaqqabı ilə girmək istəyirdi. Ayətullah yüksək səslə polisin üstünə qışqırdı: "Ayaqqablarını çıxar!"

Dövlət məmurlarını o qədər sancdı ki, onlar qorxularından məscidi tərk etdilər. Şahabadi məsciddən çıxanda məmurlar onu saxlayıb minbərə çıxmayacağına söz verməsini istədilər. O belə cavab verdi: "Get, özündən böyüyə de gəlsin!" Məmurların təkidi vəziyyəti daha da gərginləşdirdi. Ayət. Şahabadi əllərini məmurlara tərəf uzadıb dedi: "Tutun məni... Deyirəm məni tutun!" Məmurlar bu işdən və onun zəhmindən qorxuya düşüb geri çəkildilər, heç bir reaksiya vermədən geri döndülər.

## Dil yarasının əsəri

Ayətullah Məhəmməd Şahabadi deyir:

Keçmiş zamanda hamamlar ümumi idi və hər hamamın su xəzinəsi vardı. Bir gün mərhum Şahabadi çiməndən sonra xəzinəyə daxil olur, sonra sudan çıxıb ehtiyatla keçir ki, yerdəki sudan üstünə dəyməsin. Orada olan zabit bu səhnəni görüb Ağanı məsxərəyə qoymağa başlayır. Şahabadi zabitin bu hərəkətindən narahat olsa da, ona heç bir şey demədən öz yoluna davam edir. Səhəri gün Ağa dərs zamanı cənazə aparan şəxslərin səsini eşidir. Soruşur ki, nə olub? Ağanın ətrafındakılar deyir ki, bu dünən onu təhqir edən zabitdir. Hamamdan çölə çıxandan sonra dilinə yara çıxıb və ölümcül vəziyyətə düşüb. Həkimlər onun həyatını xilas edə bilməyiblər! Sonralar Ayətullah Şahabadi həmin hadisəni yada salanda narahat olur və deyirdi: "Ey kaş, mən elə ordaca ona öz etirazımı bildirəydim".

## Kağızda yazılan elm deyil

Bəziləri belə bir fikir yaradırdılar ki, Şahabadi ağa müctehid yox, filosofdur. Bir gün bir şəxs Ağaya İmam payı – xüms gətirir. O, Ağanın ictihad icazəsinə baxmaq istəyir. Ağa bu hərəkətdən çox narahat olub həyat yoldaşından sandıqdakı ictihad icazələrini gətirməsini istəyir. Yoldaşı kağızları ona verən kimi Ağa xüms gətirən şəxsin gözləri önündə onları cırıb tullayır və sinəsinə işarə edərək belə deyir: " Kağızın üzərindəki elm deyil. İctihad qüdrəti buradadır. Əgər alimlər mənə ictihad icazəsi veriblərsə, bu mənim elmi səviyyəmə görədir. Mən özüm heç vaxt ictihad icazəsi almaq barədə düşünməmişəm.".

Müəllimlərindən aldığı ictihad icazələrindən yalnız biri Ağada idi. Bu icazə Ayətullah-uzma Mirzə Məhəmmədtəqi (ikinci) Şirazi tərəfindən verilmişdi. Ağanın həyat yoldaşı hər zaman bu hadisəni yada salanda deyirdi ki, kaş ictihad kağızlarını Ağaya verməyəydim!

## Pis işdən uzaqlaşdırmaq üçün münasib yol

Ağanın evinin yaxınlığında Əmir Kəbir prospektində bir həkim yaşayırdı. Həkim qızı üçün evə musiqi müəllimi gətirirdi. Musiqinin səsi çox yüksək olduğundan camaat narahat idi. Ağa həkimə bu işdən əl çəkmək üçün xəbər göndərdi. Həkim Ağaya mənfi cavab verdi. Üstəlik Ağaya meydan oxudu.

Mərhum Şahabadi cümə gününə kimi səbr etdi. Nəhayət, keçmiş şah məscidində təşkil olunmuş məclisdə camaata belə dedi:

"Yaxşı olar ki, bundan sonra hər kəs həkimin poliklinikasının yanından keçəndə içəri daxil olub gülər üzlə həkimə salam versin və ondan bu günah işin tərk olunmasını xahiş etsin". Ağanın bu sözündən sonra insanlar öz şəri vəzifəsini yerinə yetirmək üçün həkimin poliklinikasının yanından keçəndə içəri daxil olur, həkimə salam verərək ondan xoş dillə bu əməlin tərk olunmasını istəyib çıxırdılar. Bu iş bir müddət davam etdi. Həkim hər gün camaatdan eyni sözləri eşidirdi. O gördü ki, inadkarlığını davam etdirsə poliklinikanı bağlamaq məcburiyyətində qalacaq. Üstəlik o prospektdən köçməli olacaq. Buna görə də camaatı narahat etməkdən əl çəkib, qızının musiqi dərslərini dayandırdı.

Bir gün Ağa məscidə gedən vaxt həkimin ona tərəf gəldiyini gördü. O Ağaya yaxınlaşanda gülməkdən salam verməyə taqəti qalmamışdı. Nəhayət, salam verib Ağanın əhvalını soruşaraq dedi: "Millətin gücü ilə işi bitirdin. Elə düşünürdüm ki, qanuni orqanlara, məhkəməyə müraciət edəcəksiniz. Belə olsaydı mən onların cavabını rahatlıqla verərdim. Ağlıma gəlməzdi ki, siz bu yoldan istifadə edəsiniz!"

## Hər gün deməyə yeni sözü var idi

İmam Xomeyninin Ayətullah Şahabadinin dərsinə böyük ehtiramı vardı. O, Ağanın dərslərini yüksək dəyərləndirirdi. İmam deyirdi: "Əgər Ayətullah Şahabadi yetmiş il də dərs desəydi, mən onun dərslərində iştirak edərdim. Çünki onun hər gün deməyə yeni sözü vardı".

## İrfandakı kamal mərtəbəsi

Höccətül-islam Seyid Əhməd Fəhri deyir: İmam Xomeyni müəllimlər arasında irfan müəllimi mərhum Şahabadiyə xüsusi hörmət göstərirdi. İmam çox vaxt öz kitablarında Ağanı "kamil arif şeyx Şahabadi, ruhum ona fəda olsun" sözləri ilə yad edir.

## "Həşr" surəsinin tilavəti

Ayətullah Məhəmmədriza Təvəssuli deyir: Mən İmamın öz övladlarına tövsiyələrində, həmçinin öz bəyanatlarında eşitmişəm ki, belə buyurur: "Mərhum müəllimim Şahabadi mənə "Həşr" surəsini çox oxumağı tapşırırdı – xüsusilə də surənin son ayələrini!"

**Fiqhi dərk və bəsirət**

Ayətullah Şahabadinin zamanında İranda mobil telefon və radio təzə-təzə yayılırdı və kütləvi informasiya vasitələri Rza-xan hökümətinin nəzarəti altında idi. Bu vasitələrlə əxlaqsız, İslam ziddinə və qərb mədəniyyətinə rəvac verən proqramlar yayımlanırdı. Bəzi alimlər bu proqramların zərərinə əmin olduqlarından onlardan istifadəni haram etdilər. Şahabadi güclü təbliğat vasitələrinin müsəlmanların ixtiyarında olmamasından narahat idi. Ağa deyirdi: ”Radio danışan bir şəxsə bənzəyir. Bu vasitəylə həm elm və mədəniyyət, həm də pis yol təbliğ etmək olar. Buna görə bu vasitələri faydalı proqramlar üçün alıb saxlamağın şərən problemi yoxdur”. Səsgücləndiricilər təzə çıxan zaman bəzi alimlər onlardan istifadəni haram bilirdilər. Bəziləri Ağadan soruşurdular: biz səsgücləndirici alıb məsciddə quraşdırmaq istəyirik, olarmı? Ağa bunların cavabında deyirdi: “Bu işi görün. Nə qədər ki mən sağam, bu işi görün. Qoy camaat bu vasitələrin günah olmadığını, onlardan yerində istifadənin mümkünlüyünü bilsinlər”.

**Xanım Zəhraya (s) salavat**

Ayətullah Nəsrullah Şahabadi belə nəql edir: Rəhmətlik valideynim tapşırardı: “Gecə ibadətlərində Həzrət Zəhraya təvəssül edərək, ondan kömək istəyin. Çünki bu, insanın ali məqamlara çatmasına, Allahı daha yaxşı tanımasına kömək edir. Bir də buyururdu ki, sübh namazından öncə xanıma salavat göndərin”.

**Dünya üçün də olsa səhərlər (sübh azanından öncə) oyanın**

Ayətullah Nəsrullah Şahabadi deyir: Valideynimin ən çox əhəmiyyət verdiyi işlərdən biri sübh azanından öncə qalxıb gecə namazı qılmaq idi. O deyirdi ki, Allaha yaxınlaşmaq üçün bu yiş böyük rol oynayır. O deyirdi: ”Əgər gecə nafiləsini yerinə yetirmək üçün oyanmısınızsa, amma nafiləni yerinə yetirmək halınız yoxdusa, onda oyaq qalın, oturun, çay için. İnsan belə oyaq qalmaqla ibadətə hazır olur”. O deyirdi: ”Gecə oyanmağın həm maddi, həm də mənəvi faydası var”. O dəfələrlə minbərində demişdi: “Dünya üçün də olsa, səhərlər oyanın. Çünki səhər oyanmaq ruzini artırır, çöhrəni gözəlləşdirir və əxlaqı kamilləşdirir”.

**Canım ona fəda olsun!**

Mərhum Ayətullah Mütəhhəri deyirdi: “Heç vaxt görməmişəm ki, İmam Xomeyni mərhum Şahabadinin adını çəkə, amma ardınca “canım ona fəda olsun” deməyə. Ayətullah Şahabadinin övladı deyir: “İmam atamı qəlbən sevirdi. Bir gün Nəcəf şəhərində mübahisə oldu və bu mübahisədə bir nəfərin adı çəkildi. İmam elə fikirləşdi ki, mən adı çəkilən şəxsi atamla müqayisə edirəm. Ona görə çox narahat oldu və buyurdu: “Sən atanı hələ tanımamısan. O heç kimlə müqayisə ediləsi deyil!”

**Bu yaramaz İslamı məhv edəcək!**

Şahabadi ağanın övladı belə deyir: Atam həzrət Əbdüləzimin (ə) hərəmində məhərrəm ayının birinci on gününü aşuraya kimi hər gecə minbərdə moizə etdi. Bu on gecənin hamısında söhbətinin əvvəlində, ortasında və axırında bir cümləni təkrarlayırdı. Söhbətinin axırıncı gecəsi buyurdu: “Ey Allah! Sən özün şahid ol ki, mən bu on gecədə bu cümləni otuz dəfə təkrar etdim və Nəcəf, Qum, İsfahan və Məşhəd alimlərinə bütün bildiklərimi yazdım. Bu gecə həmin cümləni axırıncı dəfə deyirəm və o da bundan ibarətdir ki, Rza-xan İngilis hökümətinin əli ilə təyin olunub və onun məqsədi Quranı, İslamı səhnədən çıxarmaqdır. Əgər o mənimlə mübarizə aparırsa, problemi ayrıdır. Bizim onunla şəxsiqərəzliyimiz yoxdur. Onun mənimlə mübarizəsi Quran təbliğatçısı olduğum üçündür. Mən dünyaya elan edirəm ki, əgər hərəkət etməsəniz, bu yaramaz İslamı məhv edəcək!”

Ən lətif ruh!

İmam Xomeyni buyurub:

“Mən ömrümdə mərhum Şahabadinin ruhundan lətif ruh görmədim.” Sözünə belə davam edir: “ Onun fiqh, fəlsəfə və irfan elmində olduğu kimi siyasətdə də misli yox idi”.

**Nə vaxt şah atəşpərəst olsa!**

Rza şahın zamanında məscidlərdə camaat namazları dayandırmaq istədilər. Came məscidlərində imamlar müxtəlif səbəblər üzündən məscidə gəlmədilər. Biri səfərə getdi, o biri xəstələndi ! Amma Şahabadi məscidə getdi. Həmən gün məsciddə polislər vardı. Məscidin yolunda Ağanın müridlərindən biri ona deyir: “Məsciddə polislər var.” Ağa cavab verir: “Qoy olsun!”. Bunu deyib məscidə daxil olur.

Bu zaman dövlət məmurlarından biri Ağaya yaxınlaşır və deyir:

-Ağa, bəs sən bilmirsən namaz dayandırılıb?

Ağa başını qaldırıb onun özünə baxmadan deyir:

-Özündən böyüyə de gəlsin!

Məmur deyir:

-Ən böyüyü elə mənəm. – söhbət davam edir:

-Əgər mən səninlə danışsam başqası gəlib etiraz etməyəcək?

-Xeyr.

-Bura haradır?

-Tehran.

Ağa deyir:

-Yox, durduğumuz yer haradır?

-Məscid.

-Bəs mən kiməm?

-Pişnamaz.

-Bu ölkə hansı ölkədir?

Məmur cavab verir:

-İran.

-İranın dini nədir?

-İslam.

-Şahın dini nədir?

Bu sualın cavabında məmur deyə bilmir ki, onun dini Quran, namaz və İslama ziddir. Belə cavab verir:

-Şah müsəlmandır.

Ağa buyurur:

-Nə vaxt şah atəşpərəst olsa, elan etsə ki, kafir, yəhudi və məsihi olub, bu məscidin qapısından kilsə zəngi assa, mən bir müsəlman məscidi tapıb orada namaz qılacağam. Amma nə qədər ki şah burada zəng asmayıb, mən müsəlmanların pişnamazı kimi namaz qılmalıyam”.

Bu söhbətdən sonra məsciddə kimsə qalmamışdı. Amma Ağa məscidə daxil olub mehrabda namaza başladı. Namaz qılanlardan biri Ağanı məsciddə görüb “Əssəlat” qışqırdı və camaat qadağaya baxmayaraq məscidə axışdı!

**Üç əxlaqi göstəriş**

Şahabadinin şagirdlərindən biri bazar əhli idi. O deyir ki, Ağa söhbətlərinin birində narahat halda belə dedi: “Nə üçün hərəkətiniz yoxdur? İnsan olmaq istəmirsiniz? Əgər doğrudan da istəmirsinizsə mən bu qədər zəhmətə düşməyim”.

Həmin şagird deyir ki, Ağanın söhbəti qurtardıqdan sonra ona yaxınlaşıb dedik: “Biz adam olmaq istəyirik. Nə edək?” Ağa dedi: “Mən sizə üç əxlaqi göstəriş verirəm onlara əməl edin. Əgər nəticə verməsə yanıma gəlin, proqramı dəyişim”.

Ağanın üç əxlaqi göstərişi bunlar idi:

1. Çalışın, namazı vaxtında qılın. Harada olsanız azanın səsini eşidən kimi əlinizdəki işi saxlayıb namaza tələsin. Bacardığınız qədər camaat namazı qılın.

2.Alverdə insaflı olun. Çalışın malları həddindən artıq baha satmayın. Alverdə gözlərinizi bağlayın və dost, tanış, yaxın, özgə, yerli, gəlmə arasında fərq qoymayın.

3.Allahın haqqını vaxtında yerinə yetirin. Deməyin ki, hələ bir il vaxt var.

# CÜMƏ MƏSCİDLƏRİ

## Güney Azərbaycanın qədim məscidlərindən



### Cümə məscidi (Urmiya)

Urmiya Cümə Məscidi – Güney Azərbaycanın Urmiya şəhərində yerləşən məscid. Urmiya Cümə məscidi Azərbaycan memarlığının Səlcuqlu və Elxani mərhələlərini öyrənmək baxımından mühüm abidədir.



Urmiya şəhərinin ən mühüm abidələrindən olan cümə məscidi geniş ərazini tutur. İç həyəti güneydən qapayan uzunsov tikili (uzunluğu 80 metrə yaxın) məscidin əski hissəsidir. Bu hissə də birbaşa tikilməmişdir. Onun kompozisiya mərkəzi tikintisi XII yüzilə aid edilən səlcuq məqsurəsidir. Plan məkan quruluşuna görə Mərənd məqsurəsinə oxşayan Urmiya cümə məscidinin məqsurəsinə sonradan şərq tərəfdən kiçik, qərb tərəfdən isə uzunsov üç nefli iri salon artırılmışdır. İndi məqsurənin kubvari gövdəsi ona bitişik salonların alçaq tutumundan xeyli yüksəyə qalxır.

Urmiya cümə məscidinin özəyi ilkin halında güney tərəfi bütöv,üç tərəfinin hər birində iki uca sivri tağ açırımı olan və günbəzlə (diametri 11,5) örtülən səciyyəvi səlcuq məqsurəsi olmuşdur. Günbəzə keçid bölümü səkkizüzlü tutum şəklindədir.

### Cümə məscidi (Mərənd)

Mərənd Cümə Məscidi – Güney Azərbaycanın Mərənd şəhərində yerləşən və əsası XII əsrdə qoyulmuş məscid kompleksi. Kompleksin özəyini təşkil edən Mərənd məqsurəsində XIV əsrdə Elxani hakimi Əbu Səid Bahadır xanın sifarişi ilə böyük yenidən qurulma işləri aparıldığından abidə həm də Əbu Səid Camisi adıyla tanınmışdır.



Uzunsov biçimli planından Mərənd cümə məscidinin bir neçə mərhələdə tikildiyi aydın görünür. Məscidin böyük sahəli ibadət salonu dayaq-günbəz konstruktiv sistemi üzrə tikilmişdir. Bu sütunlu salonun içərisində səlcuq məqsurəsi daha qabarıq gözə dəyir. Mərənd məqsurəsi, mehrab olan üzü bütöv, qalan üç üzünün hər birində iki sivri açırım olan günbəzli salondur (8,0 x 8,0). Sonralar üç yandan ona artırılan günbəzaltı məkanlar məscidin ümumi planına trapesvari biçim vermişdir.

Mərənd cümə məscidinin məqsurəsinin tikinti kitabəsi qalmamışdır. Buna baxmayaraq plan-məkan quruluşuna görə mütəxəssislər onu XII əsrin ortalarının əsəri hesab edirlər. Bu abidə XIV əsrdə Elxani hakimi Əbu Səid Bahadır xanın dövründə genişləndirilmiş və onun interyeri yenidən bəzədilmişdir. Həmin çağda Səlcuq məqsurəsinin mehrabı yapma gəc bəzəyi ilə tamamilə yenidən qurulmuşdur. Nizam Bəndgir Təbrizinin hicri 731 – ci ildə (miladi 1330 – 1331) yaratdığı mehrab kompozisiyası (eni 2,70 m, hündürlüyü 4,60 m) Mərənd cümə məscidini məşhurlaşdıran nadir gəctəraşlıq əsəridir.

Mərənd məqsurəsinin günbəzini üç yandan dövrələyən günbəzlər alçaq olub kərpicdən hörülmüşdür. Məqsurənin öz günbəzi isə tamamilə uçulmuş və indi onun salonu atma tirlərlə örtülüdür. Məqsurə cümə məscidinin özəyi, eləcə də kompozisiya və ideya mərkəzi olduğundan ilk halda onun günbəzi məscidin yayğın tutumu üzərində yüksəlirmiş.



## Cümə məscidi (Girnə)

Girnə Cümə Məscidi – Culfanın iri kəndlərindən biri olan Girnə kəndində, bir təpə üstündə, İlandağın ecazkar biçimi fonunda ucalan qədim Azərbaycan məscidlərindən biri. Dövrümüzə məscidin yalnız xarabalıqları çatmışdır.

Plan-məkan quruluşu, yerləşmə tərz, ən başlıcası isə yüksək memarlıq keyfiyyəti onun əhəmiyyətli dini kompleksin mərkəzi hissəsi – Came məscidinin günbəzli məqsurəsi olduğunu bəlliləşdirir.

Bəzi araşdırmaçılar Girnə məscidini türbə hesab etmiş, onun ilkin çağında bayırdan çadırvari günbəzlə örtülməsi fikrini irəli sürmüşlər. Ölçü və nisbətləri, xüsusilə plan-məkan quruluşu onu xatirə tikilisi saymağa heç bir əsas vermir. Azərbaycanın xatirə memarlığı təcrübəsində bu tip tikili yoxdur. Abidənin dam örtüyü tamamilə dağılsa da, iç və dış quruluşu, xüsusilə günbəzaltı keçid qurşağı onun kubvari gövdəsinin çadırvari deyil, bu tip tikililər üçün xarakterik olan sferokonik biçimli günbəzlə tamamlandığına şübhə yeri qoymur. Bu abidənin bütün göstəriciləri onu Azərbaycan ərazisində yerləşən çoxsaylı Səlcuqlu məqsurələrindən biri saymağa imkan verir.



Girnə cümə məscidinin dövrümüzə çatmış məqsurəsi planda kvadrat biçimlidir. Giriş hissəsi ortadakı enli olan üç sivri tağ açırımı şəklində həll edilmişdir. Qarşı tərəfin memarlıq bölgüsü də buna oxşardır. Məqsurənin yan tərəflərinin bölgüsü assimetrik olub bir az mürəkkəbdir. Girnə məqsurəsinin plan-məkan quruluşundan duyulan bu özümlük görünür, onu dövrələyən yerləşgələrlə, cümə məscidinin ümumi quruluşu ilə bağlı yaranmışdır.

Abidənin günbəzə keçid hissəsi kubdan səkkizüzlüyə, səkkizüzlüdən onaltıüzlüyə və ondan da günbəzə keçmə prinsipi ilə həll edilmişdir. Belə pilləli keçid məscidin tutum kompozisiyasına məntiqi və ifadəli görkəm vermişdir. İçəridə isə bu ikiqatlı keçid tağlar və tromplarla çox incə işlənmişdir. Girnə cümə məscidi bu konstruktiv ayrıntısına görə səlcuq memarlığının şah əsərlərindən sayılan İsfahandakı günbədi Xaki məscidinə bənzəyir. Ancaq ondan bir az saya biçimlidir.

Girnə məscidinin salamat qalan başqa ayrıntıları da incə biçimli olub bir-biri ilə tam qarşılıqlı ahəngdarlıqdadır. Üstündəki tikinti kitabəsi dövrümüzə çatmasa da, uyğun səlcuq abidələri ilə müqayisə Girnə cümə məscidinin XII yüzildə tikildiyini irəli sürməyə tam imkan verir.

## Cümə məscidi (Ərdəbil)

Ərdəbil Cümə məscidi (مسجد جمعه اردبيل) – Güney Azərbaycanın Ərdəbil şəhərində yerləşən və unikal memarlıq quruluşuna malik olan məscid. Məscidin dövrümüzə xarabalıqları çatıb.

Ərəbdilli qaynaqlarda bu məscidin adı X yüzildən çəkilsə də, məscid bizə bəlli olan plan məkan quruluşunu 1078 – ci ildə almışdır.



Came məscidi (bəzi qaynaqlarda Adına məscidi kimi qeyd edilir) bulağı olan təpə üstündə inşa edilmişdir. Vaxtilə bu təpə Ərdəbilin böyük bazar meydanının ortasında yüksəlirmiş.

Ərdəbil came məscidinin düzbucaqlı planı kvadrat ibadət salonu və dərin eyvandan əmələ gəlmişdir. Onun qalın divarları içərisində dövrləmə dəhliz sistemi quraşdırılmışdır. Bu xüsusiyyət, eləcə də plan biçimi Ərdəbil məscidini Səlcuqlular dövrünün başqa Azərbaycan məscidlərindən fərqləndirir. Belə quruluşa və bir sıra rəvayətlərə əsaslanan bəzi araşdırmaçılar Ərdəbil came məscidinin əski atəşgah qalıqları üzərində inşa edildiyini güman edirlər. Cəfər Qiyasi isə qeyd edir ki, bu məscid binası bəzi plan-məkan özümlüklərinə görə Güney Azərbaycanın Qazaka şəhərindəki Azərgüşnasp məbədi ilə tutuşdurula bilər.

Məscidin eyvanı (uzunluğu 15, 5 m, eni 10 m) ilk halında tağbəndlə örtülü olmuşdur. Gümbəzli ibadət salonunun qapalı cənub divarının ortasında mehrab taxçası düzəldilmiş,

qalan üç divarının hər birində (ortadakı enli, yanlardakı ensiz) verilmişdir. Belə plan quruluşu köşk tipli Səlcuqlu məscidlərinin çoxu üçün səciyyəvidir.

Came məscidinin iri günbəzi (diametri 13 m) bayır səthi büzməli olan hündür boyun (baraban) üzərində ucalırdı. İbadət salonunun kub şəkilli tutumunun üst qatında da dəhliz (qalereya) olmuşdur. Bu xüsusiyyətlərinə görə də Ərdəbil məscidi nəinki Azərbaycan memarlığında, eləcə də dünya memarlığında bənzərsizdir. Abidənin günbəz və tağbəndi uçmuşdur.

XVII yüzilə aid bir rəsmdə Ərdəbil Came məscidinin qapalı həyət ətrafında salınmış memarlıq kompleksinin baş tikilisi olduğu görünür. Onun tutumunun cənub-şərq bucağında bir minarə ucalırmış. Minarənin bu şəkildə, tutumdan ayrı tikilməsi də XI-XII yüzillərin tikinti gələnəkləri ilə uzlaşır. Yığcam plan-məkan quruluşu və bitkin mühəndis həlli olan Ərdəbil Came məscidi Azərbaycanın klassik memarlıq əsəridir.

## Cümə məscidi (Sucas)

Sucas Cümə Məscidi – Sultaniyyə şəhərindən 52 km cənub – qərbdə olan Sucas kəndinin ən məşhur abidəsi olmaqla yanaşı Azərbaycanda İslam memarlığının inkişafını izləmək baxımından mühüm abidədir. Üstündə kitabəsi qalmayan bu abidənin tikilmə çağını araşdırmaçılar 1100-cü il olaraq qəbul edirlər.

Sucas Came məscidi öz ilkin quruluşunu yaxşı saxlamış Səlcuqlu abidələrindəndir. Planı ənənəvi kvadrat biçimli olsa da, məscidin üzəri özümlü işlənmişdir. Onun mehrablı güney divarı açırımsızdır. Baş girişin olduğu quzey divarında iri bir qapı açırımı və içəridə onun yanlarında ensiz dayaz taxçalar olduğu halda, yan divarların iç səthinin ortasındakı tağçanın yanlarında iki nisbətən iri açırım verilmişdir. Mehrab çərçivəsinin yanlarını da onunla bir hündürlükdə dar tağçalar tutur. Açırım və tağçaların belə düzülüşünə başqa səlcuqlu abidələrində rast gəlinmir.



Konstruksiya baxımından Sucas məscidi başqa səlcuq məscidlərindən seçilmir: kvadrat əsas, səkkizbucaqlı və onaltıbucaqlıdan ibarət keçid bölümü və günbəz çevrəsi. Onun bayır görünüşü isə üst-üstə kub, səkkizüzlü və günbəzdən ibarət yığcam tutumdur. Quzey divardakı qapı gözü ümumi tutumdan irəli çıxan baştağ şəklində olmuş, lakin indi baxımsızlıq üzündən dağılmış vəziyyətdədir. Abidənin bayır səthlərində bəzək işləri aşkar edilməmişdir.

Sucas məscidinin interyeri kərpic və gəc yapma bəzəklərin bolluğu və rəngarəngliyi, eləcə də gözəl kufi xəttli kitabələri ilə seçilir. Abidənin mehrabı ölçücə iri olub yapma gəc bəzəklə sıx süslənmişdir. Kitabələr içində günbəzin əsasını çevrələyən həndəsi naxış fonunda işlənmiş yazı qurşağı öz gözəlliyi ilə xüsusiylə seçilir.

Araşdırmaçılar müşahidəsinə görə Sucas came məscidi ayrıca, təcrid olunmuş şəkildə dayanmamışdı. Onun kub gövdəsinə birləşən başqa yerləşgələri və məscidn ümumi planını aydınlaşdırmaq üçün ətrafında arxeoloji qazıntı işlərinin aparılması vacibdir.



# ÜÇ ƏLAMƏT

*İmam Sadiq (ə): Loğman (ə) oğluna dedi: "Oğlum! Hər şeyin bir əlaməti vardır ki, onunla tanınar və sorular.*

*Dinin də üç əlaməti vardır: Elm, iman və ona (elminə) əməl etmək.*

*İmanın da üç əlaməti vardır: Allaha, Onun kitablarına və mələklərinə iman bəsləmək.*

*Alimin üç əlaməti vardır: Allahı, Onun sevdiklərini və Onun bəyənmədiklərini tanıyar.*

*Möminin üç əlaməti vardır: Namaz, oruc və zəkat.*

*Təkəllüfə (zəhmətə) salanın üç əlaməti vardır: Özündən böyüklə mübahisə edər, bilmədiyini danışar və bacara bilməyəcəyi işin dalınca düşər.*

*Zalımın üç əlaməti vardır: Özündən böyüyə qarşı çıxmaqla, özündən aşağıya güc gəlməklə və zalımlara kömək etməklə zülm edər.*

*Münafiqin üç əlaməti vardır: Dili ürəyi ilə, ürəyi əməli ilə və zahiri batini ilə ziddir.*

*Günahkarın üç əlaməti vardır: Xəyanət edər, yalan danışar və özü öz dediyini inkar edər.*

*Riyakarın üç əlaməti vardır: Təklikdə halsız, başqalarının yanında şad olar və tərif olunmaq üçün iş görər.*

*Paxıl adamın üç əlaməti vardır: Yanında olmayanın qeybətini, gördüyünə yaltaqlıq və çətinliyə düşmüş adama tənə vurar.*

*İsrafkarın üç əlaməti vardır: Lazımı olmadığı şeyi alar, ehtiyacı olmadığı şeyi geyinər və ehtiyacı olmadığı şeyi yeyər.*

*Tənbəlin üç əlaməti vardır: O qədər süst olar ki, səhlənkarlıq edər. Səhlənkarlıq nəticəsində (işləri -Red. qeydi) xarab edər və xarab etdiyinə görə, günaha mürtəkib olar.*
*Qafilin üç əlaməti vardır: Səhv etmək, əyləncə və unutqanlıq".*